Bu bir xalq qəzetidi
ƏDALƏT

## Hikmət Hacıyev: Ermənistan bir gündə 6 şəhərimizə 498 mərmi atıb



**Ermənistanın Azərbaycanlı mülki vətəndaşlara qarşı Müharibə Cinayətləri davam edir.**

Adalet.az-ın məlumatına görə, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter" hesabında yazıb.

Hikmət Hacıyev bildirib ki, 20 oktyabrda 6 şəhərə 498 mərmi, 4 raket və 3 dron hücumu olub:

**Tərtər - 423 mərmi**
**Ağdam - 49 mərmi**
**Ağcabədi - 24 mərmi**
**Goranboy - 2 mərmi**
**Naftalan/Goranboy - "Smerch" raketləri.**
**Tərtərdə 2 mülki həlak olub, biri yaralanıb.**

## DİN əhaliyə xəbərdarlıq edir



**Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti xəbərdarlıq yayıb. Adalet.az həmin xəbərdarlığı təqdim edir:**

"Vətəndaşlar tərəfindən daxili işlər orqanlarına edilən bütün müraciətlər operativ şəkildə araşdırılır və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülür. Əhalinin nəzərinə bir daha çatdırırıq ki, qanunvericiliyə uyğun olaraq təhlükəsizlik təlləblərinin pozulması, insanların həyatına və sağlamlığına, ictimai asayişə təhlükə yarada biləcək və ya terror şübhəsi halları ilə bağlı dərhal Daxili İşlər Nazirliyinin "102" Xidməti Zəng mərkəzinə məlumat verilməlidir.

Bununla yanaşı, xatırladırıq ki, biləərəkdən yalan məlumatlar verməklə insanlar arasında təşvişə və süni ajiotaja səbəb olacaq hərəkətlərə yol verən şəxslər barəsində ən ciddi məsuliyyət tədbirləri görüləcək".

## İradə Tuncay: İtin azadlıq eşqi



**Keçən ilin bu günü yazmışammış. İt məsələsi nəttər aktual oldusa...**

***

**"Bazar günü maşını həyətdən çıxaranda it sivişib qaçdı küçəyə... Qanım qaraldı da - gəl indi qaytar həyətə. Qonaqlarım da qapıda gözləyir, getməliyik. İndi içimdə fikirləşirəm ki, ay avara hara qaçırsan axı? Küçədə yaşaya bilərsən? Müstəqil olmaq hünərin var sənin? Küçə doludu canavar kimi küçə itləriynən. Yeyərlər səni ay axmaq, qayıt! Özü də mənim kimi sahibədən qaçarlar?!**

**Nəysə qaytarıb gətirdik bunu küçənin o başından ...Qonaqlardan biri də diaqnoz qoydu - sizin itin azadlıq eşqi iki tin qaçmağa çatdı..."**

## AZƏRBAYCAN ƏSGƏRİNİN BMT-nin BAŞ KATİBİNƏ MÜRACİƏTİ

*(Qeyri-rəsmi)*



Mən adətən bu təşkilatı Birləşmiş Millətlər Çayxanası, Baş katibini isə Baş çayçı adlandırıram. Adı da azərbaycanca pis səsləndiyinə görə eldən ayıbdı deyə yazmıram.

İndi bu rəsmi müraciət olduğuna görə bu dəfə Birləşmiş Millətlər Təşkilatının Baş katibi yazdım.

Hörmətli ağzı qatıq kəsməyən Baş katib!

Sizin Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan torpaqlarından qeydsiz-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyiniz 4 qətnaməni 28 ildən sonra Azərbaycan ordusu həyata keçirir.

Yəqin ki, belə havada qalan çox qətnamələriniz var. İnşallah, o dörd qətnaməni yerinə yetirib Ermənistan silahlı qüvvələrini işğal olunmuş Azərbaycan torpaqlarından artıq çıxarırıq. Çox az qalıb.

Qoy əlimizdəki bu xeyir işi qurtaraq, digər havada qalan qətnamələriniz varsa, bizə müraciət edin, biz o qətnamələri həyata keçirək.

*Mesut Parlak*

## Can Azərbaycan!

Bax:səh-3

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## HƏR GÜN GÖZLƏNİLƏN MÜJDƏ

Bax:səh-2



**Xarici işlər nazirimiz Ceyhun Bayramov Paşinyana "At, bu da üç" demək üçün Moskvaya gedib. Açması üçün ya bugünki saytımıza, ya da qəzetimizin 20 oktyabr nömrəsinə baxın.**

Bu bir xalq qəzetidi
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 142 (5802) 22 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

## AY GÜLDÜM HA...

**Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan deyir: "Vəziyyət stabil, ağır olaraq qalır".**



# İlham Əliyev: "Biz Böyük Qayıdışın astanasındayıq"



Bax:səh-2

## Türk Şurasından Azərbaycana dəstək

**Bu müharibə qardaş Azərbaycan xalqı üçün Vətən savaşıdır. Biz bu savaşda Azərbaycanın yanındayıq.**



Bunu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyev deyib.

Baş katib Ermənistan ordusunun Azərbaycanın Gəncə şəhərinə raket hücumu nəticəsində dağılan ərazilərini gəzib. O, düşmənin mülki yaşayış məntəqələrinə və dinc əhaliyə raket hücumlarını sərt dillə qınayıb.

"Türk dilində danışan ölkələr, Türk dünyası və Türk Şurası Azərbaycanın işğal altındakı torpaqlarını azad etmək üçün haqqını qeyd-şərtsiz dəstələyir. Bu müharibə qardaş Azərbaycan xalqı üçün Vətən savaşıdır. Biz bu savaşda Azərbaycanın yanındayıq. Dostumuz Azərbaycana sülh və zəfər diləyirik".

Amreyev problemin Azərbaycanın ərazi bütövlüyü təmələrində, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qərarlarına uyğun şəkildə sülh yolu ilə həllindən yana olduqlarını qeyd edib.

## QƏTTƏZƏ QƏNİMƏT TANKLARIMIZ VAR, AMMA SATDIX DÖYÜL

**Ağdamlılarla bağlı çox zarafat yazırlar, xoşuma gələnləri də çoxdu. Bunlar şirin zarafatlardı və mən də zarafatı sevən adamam.**



Bu gün oxuyuram, kimsə yazır ki, Ağdam azad olunandan sonra orda qalan maşınları ştuçnı satacaqsınız, yoxsa aptovoy?..

Döyüşdə olan bir ağdamlı dostum da zəng edib deyir ki, Məllim, onnara belə cavaf yazki, əlimizdə oğraşlardan qənimət kimi götürdüyümüz 5 dənə qəttəzə T-72 tankı var, özü də vuruluf-eləmiyif, amma satdıx döyül, özümüz sürüf gətirəjiyik Ağdama, orda qalan maşınnarı da payleyjıyıx döyüşdə şəhid olan qardaşdarımızın balalarına, artıq qalanları da kim istiyir gəlif aparsın pulsuz-filansız.



***SİZ ŞƏKİLDƏ QARABAĞDA ŞƏHİD OLMUŞ MÜSTƏQİL AZƏRBAYCANIN İLK HƏRBİ TƏYYARƏÇİSİ VAQİF QURBANOVU GÖRÜRSÜNÜZ***

**Ruhu bu dəqiqə sevinclə Qarabağda süzür ey!**

*Mehman CAVADOĞLU*

## Qarabağ əvvəlkindən də gözəl tikiləcək



**Azərbaycan ordusunun qələbələri günbəgün artır, fədakar əsgərlərimiz daha böyük əzmkarlıq nümayiş etdirərək Dağlıq Qarabağın içərilərinə doğru inamla irəliləyirlər. Hər gün azad olunmuş şəhər, kənd və qəsəbələrimizdən yeni-yeni videolar yayılır. Bu görüntülər qəlbimizdə nə qədər böyük qürur və iftixar hissləri oyatsa da, bir o qədər də onu kədər və nisgilə bürüyür. Dünyanın ən dağıdıcı müharibələrində belə şəhər, qəsəbə və kəndlər elə keçirildikdən sonra onlara toxunulmur, heç bir obyekt, tikili, infrastruktur dağıdılmır. Ən qədim dövrlərin vəhşi qəbilələri də məğlub edib axırına çıxdıqları qonşu qəbilələrin alaçıq və daldalanacaqlarına toxunmurdular.**

(Ardı 3-cü səhifədə)

## Ulucay Akifdən maraqlı status



**Ermənistan saytlarını izləyirəm, Paşinyan hər gün hansısa generala, polkovnikə "Milli Qəhrəman" adı verir. Deyəsən, bunlar müharibədən əvvəl şərt kəsiblər ki, kim sağ qalsa, ona Milli Qəhrəman adı veriləcək.**

## Düşmən tərəfinin rəzil durumda olduğunun əyani sübutu

**Sentyabrın 27-dən Qarabağda gedən döyüşlərdə ard-arda məğlubiyyətə uğrayan Ermənistan rəhbərliyi rəsmən geri çəkildiklərini xalqa etiraf edib.**



Ötən gün Müdafiə Nazirliyinin nümayəndəsi Artsun Ovannisyan mətbuat konfransı keçirərək Azərbaycan Silahlı Qüvvələrinin yalnız kəmiyyət deyil, texniki üstünlüyünün olduğunu, hazırda Qarabağda fövqəldövlətlərin arsenalında olan texnikadan istifadə edildiyini bildirib.

Bununla belə Ovannisyanla birgə tədbirə qatılan hərbçi də diqqət çəkib. MN rəsmisi onu yaralı hərbçi kimi təqdim etsə də, üzündən olduqca yorğun və bitkin görünən həmin şəxsin məcbur konfransa gətirilərək "yenilməz" Ermənistan ordusunun siması kimi danışdırılması düşmən tərəfinin nə qədər rəzil durumda olduğunu bir daha əyani göstərmiş olub.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## ERMƏNİ XALQININ DÜŞMƏNİ



**Tanrı erməni xalqının çirkinliklərini görüb Paşinyanı onlara belə göndərib. Əmir Teymurun tarixdən silmək istədiyi, amma son anda fikrindən vaz keçdiyi bu missiyanı, yəni erməni xalqının Yer üzündən silinməsi missiyasını Paşinyan öz üzərinə götürüb.**

**Bunu mən demirəm, bunu dünyada tanınan məşhur kinorejissor Karen Şahnazarov deyir. Özü də bayyısı gözəl Solovyovun proqramında.**

(Ardı 2-ci səhifədə)

## Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***



**QAÇ, QAÇ, DİVAR QURTARANDAN SONRA HARA QAÇACAQSAN?!**

## 714 nəfər COVID-19-a yoluxdu, 176 nəfər sağaldı,

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 714 yeni yoluxma faktı qeydə alınıb, 176 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 46 min 593 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 40 min 448 nəfər müalicə olunaraq sağalıb, 642 nəfər vəfat edib. Aktiv xəstə sayı 5503 nəfərdir.

**Ötən müddət ərzində 1 milyon 250 min 736 test aparılıb. Bugünkü test sayı isə 9072-dir.**

## Zəngilan şəhəri və 24 kənd işğaldan azad edildi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də xalqa müraciətində işğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını açıqlayıb.**

Adalet.az xəbər verir ki, dövlətimizin başçısı aşağıdakı yaşayış məntəqələrinin azad olunduğunu bildirib:

Füzuli rayonu: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri.

Cəbrayıl rayonu: Sarafşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri.

Xocavənd rayonu: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng kəndləri. Vəng kəndinə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu: Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

## İlham Əliyev: “Biz Böyük Qayıdışın astanasındayıq”

**Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük, işğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıb. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunu xalqa növbəti müraciətində bildirib.

Mənfur düşmənin işğal edilmiş bütün torpaqlarımızda Azərbaycan xalqının mədəni irsini, məscidlərimizi dağıtdıqlarını vurğulayan dövlətimizin başçısı deyib: ”Onlar məscidləri dağıda bilərlər, amma bu məscidləri biz öz qəlbimizdə yaşadırıq və gün gələcək bütün bizim dağıdılmış məscidlərimiz bərpa ediləcəkdir, bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləcəkdir. Biz Böyük Qayıdış astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, işğal edilmiş və azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar. Bu torpaqlarda həyat canlanacaqdır”.

Azərbaycan Prezidenti qeyd edib ki, məcburi köçkünlərimizin bir çoxu üçün gözəl şərait yaradılmasına baxmayaraq bütün bu illər ərzində onlar bir arzu ilə yaşayıblar.

”Onlar bu qayğıya görə bizə minnətdardırlar və mənim onlarla çoxsaylı görüşlərimdə bunu ifadə edirdilər, ancaq eyni zamanda, mən bilirdim və onlar mənə deyirdilər ki, bizi qaytarın, öz torpağımıza qaytarın. Başa düşürdülər ki, bu, çətin məsələdir, başa düşürdülər ki, bunun üçün müəyyən geosiyasi şərtlər yetişməlidir, mənə inanırdılar. Mən onlara deyirdim ki, biz o torpaqlara qayıdacağıq.

Mən deyirdim ki, mən bilirəm, nəyi nə vaxt və necə etmək lazımdır və xalq tərəfindən mənə verilən və göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək və bir daha mən bəyan edirəm ki, bütün verilmiş vədləri mən yerinə yetirirəm, bütün verilmiş vədlərə sadiqəm və mənim Prezident kimi fəaliyyətim üçün əsas məsələ mənim əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik”, - deyə Prezident İlham Əliyev əlavə edib.

## “Düşmənin başını yaran yumruğumuz bizim birliyimizdir”

**Status-kvonu biz dəyişdirdik, döyüş meydanında dəyişdik. Bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. İyirmi il biz gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar sadəcə olaraq kağızda qaldı.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunu xalqa növbəti müraciətində bildirib.

Dövlətimizin başçısı deyib: ”Çünki siyasi iradə göstərilmədi.

Bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi və mənfur düşmən hesab etdi ki, bundan sonra da buna məhəl qoymaya bilər. Bundan sonra da beynəlxalq hüququ əzə bilər.

Bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilər. Biz onları məcbur etdik. Bax, bizim yumruğumuz sadəcə olaraq düşmənin başını yaran yumruq deyil.

Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyi, məqsədyönlü fəaliyyət, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir”.

# HƏR GÜN GÖZLƏNİLƏN MÜJDƏ

## Biz bu müjdənin yolunu 30 il gözlədik

**Qələbə müjdəli xəbərlər qapımızı döydükcə ümid çırağımızın işığı da artır. Təkcə evimiz, eşiyimiz deyil, dünyamız nura bələnir. Və bu nurun içərisində işğaldan azad olunan torpaqlarımızı, bu mücadiləni aparan oğullarımızı, təbii ki, öndə də Ali Baş Komandanımızı görürük.**

Belə anda güvən yerini, ümid ünvanını, əhəmiyyətini, vacibliyini dönə-dönə düşünür və bu olanlar üçün Tanrıya şükürlər edirəm. Ürəyimdə keçmişdən qalan ümidsizliyi, inamsızlığı silib atıram. Çünki yaşanan indiki an şəhidlərimizin qanı bahasına əldə olunsa da, o, Qələbə deməkdir, yurda dönüş deməkdir! O həm də özünün-özünə hakim olmağımdı. Bu mənada ki, artıq pessimist düşüncələr insanın içini qurd kimi gəmirən acılar həyatımdam çəkilib gedir. Onun kəndimizin işğaldan azad edilməsi ilə bağlı etdiyi müraciətdə bütöv Azərbaycan sevgisi və bütöv Azərbaycan sevinci ifadə olunmuşdur. Ona görə ki, xalqa müraciət edən Azərbaycanın lideri və Azərbaycan dövlətinin başçısı idi. Onun ifadə etdiyi hər bir fikir isə rəhbəri olduğu, dəstəyini qazandığı xalqın həm düşündükləri, həm də arzu etdikləri idi.

Ali Baş Komandan vurğulayırdı ki, ”Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbrsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən çox xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram”. Bəli, bu, doğrudan da hamımızın gözlədiyi anların, səbirsizliyin ifadəsidi. Necə deyərlər, hər birimizin gözü ekranda, qulağı səsdədir. Eşitdiyimiz xəbərlərin möhürünü Ali Baş Komandan baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də olsun salamat bina qalmayıb... Bütün bunlara baxmayaraq, onlar Azər-





baycan xalqının iradəsini qıra bilmədilər”. Həqiqətən də 30 il doğulduğum yurddan, həyatımız ən gözəl illərinin bağlı olduğu ünvandan uzaqda yaşamaq təbii ki, o qədər də asan olmayıb. Bu 30 ilin hər anı, hətta sevincli anının özü belə mənə bir nisgil yaşadıb. Ürəyimdən, xəyalımdan bu sevinci doğma ocaqda, doğulduğum kənddə yaşamaq hissi gəlib keçibdi. Elə istəmişəm ki, yaxşı nə varsa onu büküb, toplayıb saxlayım. Özümlə birlikdə kəndimə, yurduma daşıyıb aparım. Amma 30 il səbr etmək isə yığıb topladıqlarını saxlamaq qədər məşəqqətli, əzablı idi. Deməli, ürəyində bir dözüm həddi var imiş. Və o dözüm həddi məhz bu ilin sentyabr ayının 27-nə təyin olunubdu. Tariximizin böyük hərflərlə, Şəhid qanıyla yazılan həmin tarixi heç zaman unudulmayacaq. Məhz həmin tarixdən başladı böyük qələbələrimiz. Biz o günə kimi 1994-cü ildə Horadiz əməliyyatını, 2016-cı ildə Aprel döyüşlərini, bu il Tovuz hadisələrini zəfərimizə başlanğıc etdik. İndi isə Böyük Dönüşün, Böyük Qələbənin tarixini yazırıq. Bu tarixin müəllifi Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev cənablarıdır.

Möhtərəm Prezidentimiz öz müraciətində vurğulamışdı ki, ”Azərbaycan xalqı, Azərbaycan gəncləri, Azərbaycan əsgəri onlara dərs verir.

Təkbaşına vuruşuruq, hər kəs bunu bilir! Amma özlərinə sığışdıra bilmirlər. Çünki mifləri dağılır. Miflər onların ideologiyasının əsasıdır. Tarix haqqında yalan. Əfsuslar olsun ki, onu da indi bir çox ölkələrə qəbul etdirə biliblər, tarixi yalanı... Ona görə azğınlaşmışlar, ona görə qudurmuşlar. Onlara yerlərini göstərdik. Onların başından elə vurduq ki, çətin ayılsınlar. Onların ordusunu, texnikasını demək olar ki, məhv etmişik. Qaçırlar, hələ qaçacaqlar”.

Bu gün işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda döyüşən və hər gün rəşadət göstərərək düşmənin döyüş texnikasını, silah-surasatını, canlı qüvvəsini məhv edən ordumuz yeni kəndlərimizi, qəsəbələrimizi, yüksəklikləri, ucalıqları düşməndən təmizləyir. Demək olar ki, biz hər gün onların qələbə sədalarını Ali baş Komandana məruzələrini eşidir və dinləyirik. Elə Ali Baş Komandan da xalqa, yəni bizə üz tutaraq deyir ki, ”Gün gələcək, bu haqda geniş məlumat veriləcəkdir. Əminəm, Azərbaycan xalqı yaxşı başa düşür ki, bu gün nəyi demək mümkündürsə, onu dcyirik. Çünki döyüşlər gedir və biz istəyirik ki, tezliklə bu döyüşlər başa çatsın, tezliklə ərazi bütövlüyümüz bərpa edilsin. Ona görə hesab edirəm ki, Azərbaycan ictimaiyyətinə verilən məlumat və məlumatın həcmi kifayətdir”.

yerini işıqlı sabahlar və bir də hər kəsin ehtiyac duyduğu böyük inam tutur.

Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyev cənablarının oktyabrın 20-də xalqa ünvanladığı müraciətində vurğuladığı kimi, ”Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq”. Bəli, bu gerçəkliyi təkrar Ali Baş Komandanın dilindən duymaq, özü də duyduğunun sevincini yaşamaq tamam fərqli bir hissdi. Onu sözlə ifadə etmək o qədər də asan deyil. O hissi yaşamaq üçün, onu olduğu kimi duymaq üçün yalnız Azərbaycanlı olmaq lazımdır. Məhz Azərbaycanlı olmaqla söylənən fikrin alt qatlarına enmək mümkündür. Zənnimcə, Ali Baş Komandanın Zəngilanın və 24 vuranda sevincimiz həqiqətən aşıb-daşır. Özümüzün xoşbəxtliyimiz bütün xalqın xoşbəxtliyinin içərisində daha da gözəl görünür, daha da ürəkaçan olur. Elə həmin məqamda xalqa müraciət edən Ali Baş Komandanın ekrandan görünən çöhrəsindən tökülən fərəh, qürur hissi bizi də bürüyür.

Axı, o fərəhi, o qüruru bizə yaşadan, bizə bəxş edən məhz Ali Baş Komandan və onun Komandanı olduğu Azərbaycan ordusudur.

Bu ordu isə hər gün yeni zəfərlər qazanır, bayraqlarımızı yeni-yeni ünvanlara sancır. Ona görə də biz Ali Baş Komandanın bu gerçək məntiqinə söykənib bir daha düşünürük. Bu məntiq isə bundan ibarətdir ki, ”Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdin, bizim təbii resurslarımızı istismar edirdin. Oğurluq, talançılıq onların xislətidir. Dağılmış kəndlərin, şəhərlərin vəziyyətinə

**Həqiqətən bu gün xalqımız onu təmin edəcək informasiyalara vaxtında sahib çıxa bilir. Bu da döyüşü, xalqı və ordunu idarə edənin uzaqgörənliyinin, peşəkarlığının və müdrikliyinin nəticəsidir. Xalqla birlikdə olan ordu və Ali Baş Komandan qələbənin qarantıdır. Bunu qürur hissilə bəyan etmək, duymaq və düşünmək hər bir vətəndaşın borcudur. Axı, Qarabağ Azərbaycandır!**

**Əbülfət MƏDƏTOĞLU**
**Əməkdar jurnalist**

*Aqil ABBAS*

# ERMƏNİ XALQININ DÜŞMƏNİ

**(əvvəli 1-ci səhifədə)**

**Əvvəla, dedi ki, erməni xalqı min ildi var, amma heç vaxt dövlətləri olmayıb. Sonra Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu söylədi. Daha sonra bildirdi ki, Qarabağdakı ermənilər hansı ”öz müqəddəratını həll etmədən” danışa bilərlər və coğrafiyanı cızdı: yuxarıda Gürcüstan (hansı ki Ermənistanın Gürcüstanla həmin sərhəd bölgəsində azərbaycanlılar yaşayır, qərbdə Türkiyə, Şərqdə də Azərbaycanla əhatə olunub. Bunun bir çıxış yolu İrandı və onu da fikirləşmirlər ki, İranda 2 milyon erməni yaşayırsa, 20 milyon azərbaycanlı yaşayır. Və özü də həmin bölgədə.**

**Və sözündən belə çıxdı ki, Ermənistan Azərbaycanın qoyduğu şərtləri qəbul etməlidir, əks halda, nəinki Ermənistan dövlətinin, hətta erməni xalqının taleyi sual altındadı.**

**Bəli, Paşinyan erməni gənclərini zorla, məcburi qaydada Qarabağa döyüşməyə göndərməklə bu xalqın genefondunu məhv edir. Özləri indiyədək guya 800-ə yaxın əsgər itirdiklərini desələr də, bu rəqəm 4000-i keçib. Məhz elə buna görə də humanitar atəşkəsə əməl etmirlər ki, gəlib meyitlərini döyüş bölgəsindən götürsünlər.**

**Müzəffər ordumuzun qarşısında davam gətirə bilməyən erməni gəncləri texnikaları atır, səngərləri qoyub qaçır, fərarilik edirlər. İndi məcbur olub döyüşə qocaları göndərirlər, hətta ağzı qatıq kəsməyən qocaları. Gənc qızlardan qadın batalyonları yaradırlar.**

**Gör vəziyyət hara çatıb ki, sahibsiz qalmış donuzlar erməni əsgərlərinin meyitlərini yeyirlər. Azərbaycan əsgərləri isə insanlıq göstərərək erməni meyitlərini qurd-quş yeməsin deyə selofan torbalara yığırlar ki, Ermənistan istəsə gəlib öz meyitlərinə sahib çıxsın.**

**Mənim bir povestim var: ”Qar üstündə qan çiçəyi”. Gənc bir erməni əsgərini bizimkilər əsir götürür. Amma Komandir görür ki, postdakı əsgərlərimizin hamısı şaxtadan donub ölür və özü də artıq donmaq üzrədi erməni gəncə baxıb fikirləşir ki, bunun da anasının gözü yoldadı, yəqin sevdiyi qız da var və şaxtadan tir-tir əsən bu cocuq da yaşamaq istəyir. Baxır, baxır və yaxınlıqdakı düşmən postunu göstərib erməni gəncə deyir:**

**- Get! Get yaşa!**

**Erməni çaşıb baxır.**

**Komandir:**

**- İdi də, it oğlu, idi jivi.**

**Və düşmən əsgərini buraxır.**

**Yəni biz belə bir millətik, insanlığı yaşatmaq istəyən millətik.**

**Paşinyan isə nə o əsgərlərin analarının, nə də onları sevən qızların, bacı və qardaşlarının göz yaşlarına baxmır və qırdırır.**

**Və Paşinyan erməni xalqının ən böyük düşmənidi.**

**Və sonda. Görəsən, erməni əsirləri ilə insan kimi rəftarımızı, yaralılarını müalicə etdirməyimizi görəndə Paşinyan bir xəcalət hissi keçirirmi?! Çətin!**

### *Baş Prokurorluq xarici ölkə vətəndaşlarına xəbərdarlıq etdi*



**Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılmış araşdırmalarla son günlərdə müxtəlif terror təşkilatlarının üzvlərinin, o cümlədən xarici ölkə vətəndaşlarının dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan Ermənistan ərazisindən qanunsuz keçərək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə gəlib qanunsuz silahlı birləşmələr yaratmaları,eləcə də ərazilərimizin işğalına yönələn təcavüzkar müharibədə muzdlu kimi istifadə edilmələri müəyyən edilib.**

Bu barədə Adalet.az-a Baş Prokurorluqdan məlumat verilib. Məlumatda bildirilir ki, bu kimi qanunsuz halların qarşısının alınması məqsədilə xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə hansı qaydada gəlmələri ilə bağlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici video çarxlar hazırlanıb.

Xarici vətəndaşlardan Azərbaycan Respublikasının silahlı qüvvələrinə qarşı, eləcə də Azərbaycan Respublikasının ərazilərinin işğalına yönələn təcavüzkar müharibədə muzdlu kimi iştirak etməmələri tələb olunur.

### *Ermənilər Kaliforniyada azərbaycanlılara qarşı vandalizm aktı törədib*

**Erməni vandallarının azərbaycanlılara bəslədiyi nifrət sərhəd tanımır. Beləki, dünyanın dörd bir yanına səpələnmiş erməni lobbisinin üzvləri hətta okeanın o tayında, ABŞ-ın Kaliforniya ştatında yaşayan azərbaycanlılara qarşı vandalizm aktı törətməkdən çəkinmirlər. Onlar oktyabrın 20-də gecə Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzinin binasının üzərinə nifrət dolu ifadələr, təhqir və söyüş yazmaqla erməni xislətinin dəyişməz olduğunu bir daha sübut ediblər.**

Diasporla İş üzrə Dövlət Komitəsindən Adalet.az-a verilən məlumata görə, milli zəmində azərbaycanlılara qarşı nifrət çağrışları edən ermənilərin cəzalandırılması üçün hadisə yerinə polis əməkdaşları çağırılıb. Hazırda hadisə ilə bağlı araşdırma aparılır.

Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Həmid Azəri bu vandalizm aktını, eyni zamanda Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən Gəncə şəhərinə edilən 2 raket hücumu nəticəsində 24 mülki vətəndaşın, o cümlədən qadın və günahsız uşaqların həlak olmasını, onlarla insanın yaralanmasını hadisə yerinə dəvət olunmuş kütləvi informasiya vasitələrinin nümayəndələrinin diqqətinə çatdırıb.

## Əli Əhmədov: "Azərbaycan xalqı və ordusu düşmənə ən ağır cəza verəcək"

**"Çox təəssüf ki, Gəncə şəhəri son günlərdə erməni terroristlərinin hücumlarına məruz qalıb. Gəncəyə edilən hücumlar onların mənfur xislətini bir daha göstərdi. Bu, insanı hisslərdən bütünlüklə itirmiş məxluqların törətdikləri qeyri-insani hadisədir".**



Bunu Baş nazirin müavini Əli Əhmədov dünən Gəncədə jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, Azərbaycanın rəşadətli ordusu Ali Baş Komandanın rəhbərliyi ilə mənfur ermənilərin bu xaincəsinə endirdikləri zərblərin əvəzini döyüş meydanında çıxır: "Onlar bu xəyanətin və xain hərəkətlərin ağır nəticələrini görəcəklər. Azərbaycan əsgəri qadına, uşağa, qocaya əl qaldırmır, bundan sonra da qaldırmayacaq. Bu hərəkəti törədənlər Ermənistanın hərbi-siyasi rəhbərliyidir. Onlar Azərbaycan xalqının və ordusunun ən ağır cəzasını alacaqlar".

Ə.Əhmədov bildirib ki, gələcəkdə də Azərbaycan hökuməti bu hərəkəti törədənlərin, xüsusilə də əmri verən Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüquq normaları əsasında cavab verməsi üçün əlindən gələni edəcək:

"İnanıram ki, cəzalarını alacaqlar. Bizim üçün ən böyük itki həlak olan insanlardır. Təəssüf ki, onları geri qaytarmaq mümükün deyil. Eyni zamanda, bizim qəlbimizi yaralanan insanlar da ağrıdır. Güman edirəm ki, Azərbaycanın həkimləri qısa zamanda yaralıları həyata qaytaracaqlar. Hesab edirəm ki, bu günlərdə Gəncə şəhəri və gəncəlilər böyük dəyanət, qəhrəmanlıq nümayiş etdirdilər. Düşmənin Gəncəyə endirdiyi zərbələrin məqsədi azərbaycanlıları qorxutmaq, vahimələndirmək idi, amma onlar buna nail olma bilmədilər".

"Gəncəlilərin timsalında Azərbaycan xalqının nə qədər qəhrəman xalq olduğunun şahidi oldular. Heç bir təxribat, terrorist hərəkət Azərbaycanı haqq yolundan döndərə bilməz. Azərbaycanın zəfər yürüşünün qarşısını alacaq ikinci bir qüvvə yoxdur", - deyə o qeyd edib.

**Nicat Novruzoğlu**

## Milli dronumuz: "Zərbə"nin xüsusiyyətləri

**Düzgün innovativ həllər yalnız vətəndaşların rahatlığı yox, həmçinin Vətənin təhlükəsizliyi ola bilər. Bu gün Ordumuzun pilotsuz uçan aparatlardan (PUA) geniş istifadə etməsindən hamı məlumatlıdır. Hər kəs Türkiyə istehsalı "Bayraktar" PUA-larından danışır.**

İnnovasiyalar Agentliyindən bildirilib ki, döyüşlərdə Azərbaycanın milli dronu olan "Zərbə" PUA-larından da istifadə olunur.

"Zərbə" PUA-larındakı xüsusi izləmə mini optik kamerası istisna olmaqla (kamera Çindən idxal olunur) tamamilə yerli istehsaldır.

"Zərbə" PUA gecə və gündüz, istənilən hava şəraitində sərbəst şəkildə düşməni izləmək və ona zərbə endirmək imkanına malikdir.

Həmçinin partladıcı gücə malik yeni aparat qəlpəli fuqaslı piyada əleyhinə, müxtəlif texnikaya və canlı qüvvəyə qarşı effektivdir. Aparat əməliyyat baxımından xüsusi avadanlıqlarla təchiz edilmiş yüksək keçid qabiliyyətinə malik "K1-Zərbə" mobil xüsusi zirehli maşına quraşdırılıb və istənilən zaman düşmənə sarsıdıcı zərbə endirə bilər.

**Aparat elektron maneə vasitələrinə qarşı dayanıqlıdır. Peyk GPS əlaqəsi itən zaman aparat sərbəst döyüş tapşırığını yerinə yetirməyə qadirdir.**

Mehman Cavadoğlu

# Qarabağ əvvəlkindən də gözəl tikiləcək

(əvvəli 1-ci səhifədə)

**Boyunlarına "mədəni millət" xaltası keçirmiş bu ikiayaqlı vəhşilər isə ayaqları dəyən yerlərdə daş üstündə daş qoymayıblar, hər yeri sözün həqiqi mənasında xarabazarlığa çeviriblər. Alban abidələrinin qarşısından köhnə şakərlərinə uyğun olaraq erməni lövhələri asıb, məscidlərdə heyvan saxlayıb, digər maddi-mədəniyyət nümunələrini dağıdaraq yerlə-yeksan edib, bəşər sivilizasiyasının inciləri sayılan qədim kurqanları da çox güman ki, hərbi istehkam və anbarlara çevirərək dağıdıb töküblər. Hər halda işğal bitəndən sonra bu vəhşiliklərin hamısı Azərbaycan mütəxəssisləri tərəfindən bir-bir sənədləşdirilərək dünya ictimaiyyətinə çatdırılacaq və beynəlxalq güclər öz ərköyün övladlarının əsl simasını növbəti dəfə görəcək, təbii ki, növbəti dəfə də onların başlarını sığallamaqda davam edəcəklər. Çünki bu millət onların dünya ağalığı planlarında birdəfəlik yox, çoxdəfəlik istifadə üçün nəzərdə tutulub.**

Başqalarının işğalçılıq ambisiyalarında alətə çevrilmək təşnəsi, yüz fitnə-fəsadla quraşdırdıqları saxtakarlıqlarla dolu bir tarixin labirintlərində bitmək bilməyən vurnuxmaları son nəticədə bu bədxah qonşuların xarakterində ciddi aşınmalar yaradıb, onları əlahiddə bir psixoloji tipə çevrib. Az qala bütöv bir qövm tibbin və psixologiyanın ayrı-ayrı fərdlərdə aşkar elədiyi "sadomazoxizm" mərəzinə yoluxub. Bu isə elə bir patologiyadır ki, ona mübtəla olanda qəddarlıq və yazıqlıq instinktləri arasındakı sərhədlər silinir, qələbə eyforiyasının yaratdığı vəhşiliklə məğlubuyyət acısının oyatdığı məzlumluq hissləri eyni dərəcədə başgicəlləndirici zövq mənbəyinə çevrilir.

"Genosid" kəlməsi varlıqlarına o qədər hakim kəsilib ki, hər fürsətdə onu dilə gətirməkdən yorulmur, uşaqlarına belə qətliam havası üstündə layla çalırlar. Guya onları vətənpərvər böyütmək istəyir, əvəzindəsə getdikcə bir-birindən daha xəstəhal nəsillər yetişdirirlər. Dağlıq Qarabağdan xeyli uzaqda yerləşən Gəncə şəhərinə gecə saatlarında atdıqları raketlə körpə uşaqları, qadınları, qocaları sadistcəsinə qətlə yetirir, özünün üç-dörd hərbçisi cavab zərbəsiylə öldürüləndə mazoxistcəsinə "genosid" deyə haray salırlar.

Dünyada yəhudilərin çəkdiyi müsibətlərlə heç bir xalq üzləşməyib. Özü də söhbət təkcə Hitler Almaniyasının törətdiyi dəhşətli qırğınlardan getmir. Xristian dünyası min illər boyu İsa Məsihin intiqamını almaq üçün onların başına olmazın müsibətlər gətirib, qətliamlar törədib, qovmadıqları, didərgin salmadıqları yer qoymayıb. Buna baxmayaraq, yəhudilər hər fürsətdə özlərinə əzabkeş donuna bürüyüb göz yaşı tökmür, ağlağan uşaq kimi vay-şüvən qopardıb dünyanın gününü göy əsgiyə bükmürlər.

Qətliama uğradıqlarını iddia etdikləri ölkənin, eləcə də Azərbaycanın on minlərlə dinc əhalisini görünməmiş qəddarlıq və işgəncələrlə qətlə yetirən ermənilərsə əyinlərinə "əzabkeş millət" libası geyinərək "genosid arayışı" almaqdan ötrü məqribdən məşriqə kimi bütün dünya dövlətlərinin qapılarında sülənməkdən usanmırlar. "Genosid" özündə silahlı üsyançıları və quldurları yox, dinc əhalinin kütləvi qətlini ehtiva edən anlayışdır. Tarixin yaddaşında və arxivlərində Avstriyada alman əsilli Vilhelm Qustloff adlı tələbənin faşistlərin antisemit isterikalarından təngə gəlmiş bir yəhudi tərəfindən öldürülməsindən başqa hansısa bir yəhudinin hansısa almanı qətlə yetirməsiylə bağlı ikinci fakt tapa bilməzsiniz. Faşistlər həqiqətən dinc əhaliyə qarşı qətliam törətmişdilər və bu yarlıq Alman dövləti yaşadıqca domokl qılıncı kimi onun başının üstündən asılıb qalacaq. Ancaq ermənilərə qarşı heç bir qətliam olmayıb. Söhbət ən pis halda dinc əhalinin köçürülməsindən gedə bilər ki, müharibə aparan istənilən ölkənin daxilində qiyam qaldıranlarla bu cür davranıblar.

Bu gün erməni genosidini tanıyan Rusiya parlamentisə sovet-alman müharibəsi vaxtı azərbaycanlılar da daxil olmala onlarla xalqın sürgün edilməsi faktını görməzdən gəlir. Halbuki bu xalqlar nəinki Sovet dövlətinə qarşı qiyam qaldırmamışdı, əksinə, ruslarla bir yerdə almanlara qarşı vuruşurdular. Nə ermənilər, nə də onların havadarları anlamır və yaxud anlamaq istəmirlər ki, türklər onlardan yaxa qurtarmaq istəsəydilər bunu Osmanlının əlinin üstündə əl olmayan vaxtlarda edərdilər.

Guya genosid faciəsi yaşamış bu toplumun hər fürsətdə tökdüyü göz yaşlarına baxmayın, onun əsl siması və mahiyyəti baş nazirinin əsgər patarı geyinmiş əli silahlı arvadının göreşən kimi səngərlərdə sürünə-sürünə Azərbaycan əsgərinin üstünə tuşladığı avtomatın lüləsi altında gizlənib. Hələ keçmiş birinci ledi Köçəryanın bir neçə il əvvəl xəstəxanada qan verərkən hətta Hitlerin özünü heyrətə salası açıqlamsına fikir verin: "Qan bankında yalnız təmiz erməni qanı toplanmalıdır". Bu şıltaq bir xanımın sərsəmləməsi-zad deyil, Ermənistan dövlətinin yürütdüyü xalis irqçilik siyasətinin təzahüri və etirafıdır. Özləri dünyanın bütün ölkələrinə səpələnmələrinə baxmayaraq, tam monoetnik bir dövlət qurmalarının kökündə də elə bu faşizm xisləti dayanır.

Ola bilsin ki, açıq-aşkar müharibəni təşviq edən, başqa xalqlarla bir yaşamağı istisna edən bu cür irqçi, qaraçı davranışlar əlahəzrət Minsk qrupunun əsl məğzi hələ heç kimə düz-əməlli bəlli olmayan mandatına daxil deyil deyə möhtərəm həmsədrlər belə "xırda şeyləri" qulaqardına vurur. Bəs, birinci ledi institunun çox populyar olduğu Qərbin dövlət başçılarından çox onların xanımlarının hərəkət və danışıqlarının "keşiyini çəkən" "demokratik mətbuatı" nədən bu cür iyrəncliklər qarşısında ağzına su alıb susur. Hərçənd, həmin hadisələr Azərbaycanda, ya da fərqi yoxdur, hər hansı başqa bir müsəlman ölkəsində törədilsəydi qopardıqları tozanaqdan gözlər tutular, saldıqları hay-küydən qulaqlar kar olardı.

Ermənilərin bütün bəlalarının başında yarandığı gündən fəaliyyəti "erməni müstəsnalığı" kimi xəstəhal bir ideologiyanın daşıyıcısına çevrilmiş Eçmiadzin kilsəsi durur. Bu kilsə heç vaxt ümumi xristian mədəniyyətinin daşıyıcısı olmayıb, onun İsa Məsihin ideallarına, xristian dəyərlərinə sədaqət deyə bir missiyası yoxdur. Son dövrlər özlərini miafizit adlandırsalar da, əslində bütün xristian konfessiyalarının küfr saydıqları monofizit təriqətinə mənsubdurlar. Əlahiddə məzhəb əlahiddə millət tipi , başqa təriqətlərlə yola getməyən kilsə başqa xalqlara düşmən kəsilən qövm formalaşdırıb. Güclülərə sığınaraq zəiflərin torpağını, mədəniyyətini və nəhayət, torpaqlarını qamarlamaq siyasəti yeridib, bu yolda yüz cildə girib. Vaxtilə qonşu albanların da maddi-mənəvi irsini bu cür mənimsədilər, ərəb xəlifələrinin, səlcuq sultanlarının, monqol xanlarının, Azərbaycan padşahlarının qılığına girməklə bacarmadıqlarını son nəticədə rus çarlarının əliylə gerçəkləşdirdilər, Alban kilsəsini birdəfəlik yer üzündən sildilər, onların nəinki maddi-mədəniyyət nümunələrini, hətta yazılı abidələrini mənimsəməyə çalışdılar, əsərlərini erməni dilinə çevirib orijinallarını məhv elədilər.

Bu kilsənin əsl simasını İlya adlı bir katolikosunun vaxtilə ərəb xəlifəsinə yazdığı aşağıdakı məktubdan daha mükəmməl təsvir eləmək mümkün deyil:

"Dünya fatehi əmirəlmömin Abdulla Əbdülmalikə erməni katolikosu İlyadan.

Hakimi-mütləq Allahın hökmü ilə bizim ölkə itaətlə sizin hakimiyyətinizə tabedir. Biz və Albanlar vahid İsa dininə etiqad edirik. Bərdə taxtında oturan indiki Albaniya katolikosu Bizans imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adınıı çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun.

İndi qoy sizə məlum olsun və bu məsələni diqqətinizdən kənar etməyin, çünki bu bədəfkarlıqda onun bir əyan qadın həmfikri vardır. Böyük hökmdar, siz öz hökmünüzlə əmr buyurun ki, onlar Allaha qarşı işlədikləri günahlara görə müstəhəqq olduqları cəzaya çatsınlar".

Xəlifə xahişi cavabsız qoymur və Bərdəyə xüsusi cəza dəstəsi göndərərək Alban katolikoslunu "müstəhəqq olduğu cəzaya" çatdırır. Arxivlər müxtəlif erməni katolikoslarının öz dindaşlarını məhv etmək üçün dövrün güclü hökmdarlarına göndərdikləri bu cür yaltaq və hiyləgər "donos"larla doludur.

Şübhəsiz, çox qısa vaxt ərzində Azərbaycan ordusu bütöv Qarabağı işğalçılardan təmizləyəcək, məcburi köçkünlər öz yurd-yuvalarına qayıdacaq, vandalların xarabazarlığa çevirdiyi bu qədim diyar yenidən Azərbaycanın gözəl guşələrindən birinə çevriləcək. Dağılmış şəhər, qəsəbə və kəndlərimiz əvvəlkindən də yüz qat abad olacaq. Bölgənin bütün maddi-mənəvi irsi öz həqiqi varislərinə, bütün alban abidələri öz sahiblərinə qayıdacaq.

**Albaniya indiki Ermənistan kimi monoetnik dövlət olmayıb. Strabonun yazdığı kimi bu ölkədə 26 xalq yaşayıb ki, onların arasında çoxsaylı türk qövmləri də olub. Bu qədim dövlətin əsl varisləri bizik, azərbaycanlılardır, ordakı bütün xalqlar bizim əcdadlarımızdır. Türklü, talışlı, ləzgili, udinli, haputlu, qrızlı, xınalıqlı... hamımızın.**

ELÇİN

# XALQIN QƏLƏBƏSİ VƏ XALQIN FACİƏSİ



**Bu gün Azərbaycan heç vaxt olmadığı dərəcədə birdir və bu birlik genetik özünümüdafiə və milli təəssübkeşlik hissini, gələcək nəsillər qarşısında məsuliyyət hissini silkələyib oyadır.Bu birlik şəxsi ədavətləri, kin-küdurəti, dedi-qodunu, böhtanları-bir kənara atır və baxın telekanallara, mətbuata, sosial şəbəkəyə - fikirlər, mülahizələr, düşüncələr, istəklər şəxsi yox, xalq mənafeyi naminə söylənir, sevinc də, nigarançılıq da, həyəcan da yalnız şəxsin yox, xalqın sevinci və həyəcanıdır.**

Əgər bu gün övladını itirmiş ana: "- Vətən var olsun!"- deyirsə, əgər bu gün ocağı dağıdılmış ata: "- Bu ev-eşik əsgərimizin dırnağına da dəyməz!"- deyirsə, bu, həmin birliyin mənəvi miqyasının göstəricisidir.

Bizim müasir dünyamız ikili siyasi standartlar dünyasıdır.

Şimali İrlandiya xalqı Böyük Britaniyadan ayrılmaq, öz əzəli torpağında müstəqil yaşamaq istəyir - dərhal dövlətlərin ərazi bütövlüyünün dəyişməzliyi yada düşür.

Kataloniya xalqı səs verərək, İspaniyadan ayrılmaq, öz əzəli torpağında müstəqil yaşamaq istəyitr, yenə də dərhal ərazi bütövlüyünün dəyişməzliyi əldə bayraq edilir. Erməni millətçiliyi başqa bir dövlətin ərazisində ikinci bir dövlət yaratmaq istəyir, ancaq həmin ərazi bütövlüyünün dəyişməzliyi nəinki yada düşmür, bir çox hallarda açıq, ya da dolayısı ilə müdafiə olunur, Avropanın böyük birdövlətinin başçısı haray salır ki, Azərbaycan Qarabağı işğal etmək istəyir.Avropanın ən geridə qalmış ölkələrinə Avropa İttifaqının qapıları taybatay açılır, onlar İttifaqa üzv qəbul edilir, Türkiyə isə min bir bəhanə ilə kənarlaşdırılır. İki NATO ölkəsi - Türkiyə ilə Yunanıstan arasında gərginlik yarananda elə həmin NATO ölkələrinin üzvləri yenə də ya açıq, ya da dolayısı ilə Yunanıstanı müdafiə edir.

Bu ikili standartlar dünyasında həmin standartlardan çəkinməyərək, onlarla barışmayaraq, öz xalqının taleyi ilə bağlı siyasi iradəni ortaya qoymaq, tarixi cəsarət, fədakarlıq və inam tələb edir.

Preziden İlham Əliyev bu siyasi iradəni bütün sərtliyi və qətiliyi ilə ortaya qoydu və Azərbaycan birliyinə nail oldu, Ermənistan təcavüzünə qarşı savaş Vətən müharibəsinə çevrildi.

Bu müharibədə bizim ən böyük müttəfiqimiz - həqiqətdir və İlham Əliyevin təmiz ana dilində, təmiz ingilis dilində, təmiz rus dilindəki çıxışları bu həqiqəti dünya ictimaiyyətinə çatdırır, bu həqiqəti həmin ikili standartların üzünə çırpır.

Bu çıxışlar həqiqətin qələbəsidir və bizim cəbhə qələbələrimiz də bu həqiqətin təsdiqidir.

Cəbrayılın, Hadrutun, Füzulinin, bir çox kəndlərimizin işğaldan azad olunması, əslində, Azərbaycanın yeni tariximin başlancığıdır və erməni millətçiliyinin bütün cidd-cəhdinə baxmayaraq, Azərbaycan öz ərazi bütövlüyünü əldə edəcək.

Xalq qələbə çalacaq.

Ancaq bundan sonra da Azərbaycan qələbələri davam edəcək - siyasi qələbələri, mədəni, elmi, iqtisadi qələbələri və Azərbaycan sivil bir Avropa ölkəsi kimi dünya birliyində öz layiqli yerini daha artıq möhkəmlədəcək, daha artıq nufuz və hörmət qazanacaq, çünki o siyasi iradənin miqyası geniş və çoxcəhətlidir.

İlham Əliyevin ortaya qoyduğu bu siyasi iradə xalqı ordunun güvənc yerinə, ordunun da xalqa güvənc yerinə çevirdi.

Xudafərin körpüsü Azərbaycanı yenə öz tarixi keçmişi ilə birləşdirdi.

Bu siyasi iradə Azərbaycanla Türkiyə arasındakı qardaşlığı da daha artıq doğmalaşdırdı və münasibətlər daha əməli, işgüzar və daha fərəhli bir mərhələyə keçdi.

Biz yaxşı bilirik ki, atalar sözu yüzillieklərin sınağından keçərək özünü təsdiq edir, anqcaq baxın, "Bir millət, iki dövlət" sözləri qısa bir müddətdə Azərbaycanda da, Türkiyədə də atalar sözünə çevrildi və bu gün Ulu öndərin yaratdığı bu atalar sözü yeni çalarlar əldə etdi, münasibətlərə yeni və isti nəfəs verdi.

Bu günlərdə mən xəbərlərdə oxudum ki, Ermənistanın yazıldığına görə tanınmış jurnalisti Yeva Abramyan Gəncəyə raket atılarkən uşaqların, qadınların da qətlə yetirilməsindən ruhlanaraq, orduya çağırış edib ki, Azərbaycanın dinc əhalisini daha artıq qətlə yetirmək, onlara daha artıq raketlər admaq lazımdır.

Doğrusu, bu çağırış mənə çox təsir etdi: qərəz qadını, yəni ananı yırtıcıya çevirib.

Və mən fikirləşdim ki, qadını yırtıcıya çevrilmiş xalq - əbədi olaraq məğlub xalqa çevrilir.

**Xalq üçün bundan böyük faciə ola bilməz**

# KƏNDLƏRƏ AD QOYA BİLƏRİK, SİLİNMƏYƏCƏK AD ÜRƏYİMİZƏ YAZILANDI



**Sentyabrın 27-dən bəri davam edən Vətən savaşında ermənilərin işğal etdikləri ərazilər bir-bir geri alınır. Azərbaycan ordusunun uğurlarını bütün dünya yaxından izləyir. Azərbaycanın müharibədə istifadə etdiyi və bir çox kritik məqamları ələ keçirərkən tətbiq etdiyi "Bayraktar" PUA-ları ölkənin gündəminə çevrilib. Türk "Bayraktar"ları ilə Ermənistana cəbhəni dar edən Azərbaycan cəbhədə əmin addımlarla irəliləməyə davam edir.**

Bu səbəbdən də Azərbaycanda sosial şəbəkə istifadəçiləri ordumuz tərəfindən işğaldan azad edilən kəndlərdən birinə Bayraktar adının verilməsini təklif ediblər.

Bu təklif Türkiyənin Azərbaycanın haqq savaşında ölkəmizə göstərdiyi dəstəyinə təşəkkür etmək məqsədilə irəli sürülüb. Təklif Türkiyə mətbuatında da yer alıb.

Türkiyə KİV-ləri xəbər verir ki, Səlcuq Bayraktarın adının kəndlərdən birinə verilməsi təklifi türklər tərəfindən yüksək qürur hissi ilə qarşılanıb.

**Onu da qeyd edək ki, müharibədə böyük bir məğlubiyyətə uğrayan və pilotsuz təyyarələrin qorxusundan artıq əsgərlərini döyüş meydanında saxlaya bilməyən Ermənistan NATO-ya müraciət edərək Bayraktar PUA-ların Qarabağda istifadəsinə icazə verilməməsini istəyib.**

MEHRİBAN

# Müdafiə Nazirliyi: Düşmən itki verərək geri çəkilib

*Döyüş bölgəsində düşmən bölmələrimizi və yaşayış məntəqələrimizi atəşə tutmaqda davam edir.*

*Adalet.az-ın məlumatına görə, bunu bu gün keçirilən mətbuat konfransında Müdafiə Nazirliyinin Mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib. O bildirib ki, cəbhə bölgəsində Ermənistan silahlı qüvvələləri Azərbaycan-Ermənistan dövlət sərhədini və yaşayış məntəqlərimizi atəşə tutub. Düşmən Göygöl, Tovuz, Daşkəsəndəki döyüş məntəqələrimiz, Tərtər və Ağdamda mülki şəxsləri atəşə tutub. Hadisə nəticəsində 2 nəfər mülki şəxs həlak olub, 1 nəfər yaralanıb".*



*A.Eyvazov deyib ki, oktyabrın 19-u və 20-də cəbhənin Ağdərə-Ağdam, Füzuli-Hadrut-Cəbrayıl və Qubadlı-Zəngilan istiqamətlərində müqavimət göstərməyə cəhd edən düşmənə qarşı döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.*

*Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 haubitsa topu və 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.*

*Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.*

*Eyni zamanda, məlum olub ki, Azərbaycan Ordusunun endirdiyi artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. Alayın 1-ci motoatıcı taborunun şəxsi heyəti və döyüş texnikası tamamilə sıradan çıxarılıb.*

*Azərbaycan Ordusunun həyata keçirdiyi tədbirlər nəticəsində 2-ci motoatıcı alayın müdafiə sahəsində düşmənin bir bölməsi döyüş mövqelərini tərk edərək geri çəkilib.*

*5-ci dağatıcı alayın müdafiə sahəsində düşmən bölmələrinin şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var.*

*Füzuli rayonu istiqamətində əkshücuma keçən düşmən bölmələrindən birinin 30 nəfər şəxsi heyəti Azərbaycan Ordusunun atəşi nəticəsində darmadağın edilib.*

*246-cı alayın müdafiə sahəsində alay komandiri polkovnik Tatul Ğazaryan, alay komandirinin müavini Armen Ohanyan və 3-cü taborun komandiri də xüsusi tədbirlər nəticəsində zərərsizləşdirilib.*

*Azərbaycan Ordusunun cavab atəşi nəticəsində düşmən itki verərək geri çəkilib və nəticədə işğal altında olan 24 kənd və Zəngilan şəhəri azad olunub".*

Mesut Parlak

# Can Azərbaycan!



**Mustafa Kamal Paşa, 3 may 1920-ci il Şərq Cəbhəsi Komandanı Kazım Karabekir Paşaya yazdığı bir məktubda "dövlətdə heç pul qalmadı, indi içəridə pulu təmin edə biləcəyimiz qaynaq da yoxdur. Başqa qaynaqlardan pul təmin edilənə kimi Azərbaycan hökümətindən borc pul alınmasını rica edirəm" deyirdi.**

**Kazım Karabekir Paşa istəyi Azərbaycan hökümətinə çatdırdı. Bu istək Azərbaycan Sovet Sosialis Xalq Respublikası ilə Ankara hököməti arasındakı ilk rəsmi təmas idi.**

**Azərbaycandan Türkiyəyə uzanan qardaş əli 1921-ci ildə Nəriman Nərimanovun (azərbaycanlı bolşevik inqilabçı, yazar, naşir, siyasətçi və dövlət adamı və Azərbaycan Xalq Komitələri heyətinin sədi) şəxsi əmrilə uzandı. Azərbaycan Xarici İşlər Naziri Mirzə Davud Hüseynov qələbə çalınan I-II İnönü Savaşları münasibətiə göndərdiyi teleqrafda " Qazanılan bu böyük zəfərlərdən dolayı Türk xalqını Azərbaycan Sovet Sosialist Respublikası adından təbrik edirik" deyir və böüyk zəfərlərin şərəfinə Azərbaycan xalqının yardım üçün 30 sistern (tanker) neft, 2 sistern benzin, 8 sistern kerosin göndərdiyini bildirirdi.**

**Eyni ilin may ayında Azərbaycan dövləti TBMM hökümətinə 62 sistern neft yolladı və bundan sonra savaş bitənə kimi eyni dəyərdə neft və üç vaqon dolusu kerosin göndərəcəyini vəd etdi.**

**Bu vəddən əlavə olaraq 1922-ci ildə Batumi yolu ilə Azərbaycan 9 min tondan artıq kerosin və 350 ton benzin göndərdi.**

**Mustafa Kamal Paşa 1921-ci ildə Nərimanova bir məktub yazaraq borc pul istəmişdi.**

**Bu məktub 17 mart 1921-ci ildə Nərimanova çatdı. Nərimanov dərhal 500 kq qızıl göndərdi. Bunun 200 kiloqramı dövlət büdcəsinə, qalanı isə silah-sürsat üçün istifadə olundu. Daha sonra Nərimanov Türkistandan Moskvaya çatan 10 milyon qızıl rublu Ankaraya göndərdi.**

**Bu yardımlarla savaş içində olan ölkənin vəziyyətində müsbət yönə doğru xeyli dəyişiklər oldu. 23 mart 1921-ci ildə Azərbaycan höküməti istənilmədiyi halda belə Türkiyəyə Azərbaycan xalqının hədiyyəsi olaraq 30 sistern neft, 2 sistern benzin, 8 sistern is yağ göndərdi. Nərimanov Mustafa Kamal Paşanın məktubuna yazdığı cavab məktubunda hər gün qazanılan zəfərlərlə Türk xalqının imperializmdən qurtuluş günlərinin yaxınlaşdığını, bu səbəbdən qəhrəman Türk xalqını təbrik etdiyini yazır və əlavə edirdi:**

**"Paşam, bizim Türk millətində qardaş qardaşa borc verməz. Qardaş hər zaman qardaşının əlindən tutar. Biz qardaşıq, hər zaman əlinizdən tutacağıq və tutmağa davam edəcəyik".**

***Qaynaq: A. Şəmsəddinov, Qurtuluş Savaşı illərində Türkiyə - SSRİ əlaqələri səhifə 66.***

***Dilimizə uyğunlaşdırdı:***
***Eminquey***

# Koronavirusa yoluxanların sayını sıfırlamağa məcburuq

**Son günlər koronavirusa yoluxma statistikasında yenidən kəskin artım müşahidə olunur. Ötən gün virusa yeni yoluxanların sayı 584-ə çatıb. Ölkə üzrə aktiv xəstə sayı da oktyabr ayının əvvəlləri ilə müqayisədə təxminən üç dəfəyədək artaraq 4972 nəfər təşkil edir. İstisna edilmir ki, yoluxmada bir neçə gün əvvəlki anti-rekord (649 yoluxma) təzələnməyəcək.**

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, tibb elmləri doktoru Rəşad Mahmudov Trend-ə açıqlamasında bununla bağlı xalqa çağırış edib. Deputat bildirib ki, hazırki vəziyyətdə koronavirusla



mübarizədə tibb işçilərimizi məşğul etməyə haqqımız yoxdur.

"Bütün dünya ölkələrindəki çağırışlardan fərqli olaraq Azərbaycan xalqı bu gün sadəcə sağlamlığı üçün deyil, hər birimizin bir dəqiqə belə unuda bilmədiyi əsgəri üçün, Vətəni üçün, Ordusu üçün "COVID -19"a hamılıqla "yox" deməlidir! Bu gğn hər birimiz koronavirusa yoluxanların sayını azaltmağa deyil, hətta sıfırlamağa məcburuq.

Gəlin səhiyyə işçilərimizi, həkimlərimizi "COVID-19" mübarizəsiylə məşğul etməyək, fədakar tibb işçilərimizin gücünü, ruhunu öz əsgərinə, öz ordusuna, öz haqqlı davası uğrunda mübarizədə zədələnmiş, xəsarət görmüş insanların sağlamlığına həsr edək! Gəlin Ali Baş Komandan və hökumət üzvlərinin diqqətini səngərdən və haqlı davamızdan başqa heç bir yerə ayırmayaq!"

## Rusiyada Su-34 qəzaya uğradı



Rusiyanın Su-34 təyyarəsi Xabarovskda planlı təlim-məşq uçuşu yerinə yetirən zaman qəzaya uğrayıb.

Bu barədə Rusiyanın Şərq Hərbi Dairəsi məlumat yayıb.

"Xabarovskda planlı təlim-məşq uçuşu zamanı Şərq Hərbi Dairəsinin Su-34 təyyarəsi qəzaya uğrayıb. Pilotlar katapult edə biliblər. Onların sağlamlığı üçün heç bir təhlükə yoxdur", - deyə məlumatda bildirilib.

MEHRİBAN

Adil Misirli

## Xalqımızın qəhrəman oğlu ən yüksək adlara layiqdir



**Hər zamanın öz hökmü var. Vaxt yetişəndə bu hökmü dəyişmək mümkün olmur. Daha doğrusu, bu hökmdən qaçmaq mümkünsüzdür. Doğma Qarabağın taleyi də belədir. Qarabağ məsələsinin həlli də vaxt baxımından artıq yetişib.**

**Otuz il öncə torpaqlarımız mənfur düşmənlərimiz tərəfindən işğal olunanda vaxt bizim xeyrimizə işləməyib. Ancaq son günlər zaman biz azərbaycanlıların nəhayət, haqq səsini eşitdi. Türk dünyasının böyük oğlu, xalqımızın müdrik lideri İlham Əliyev öz uzaqgörən siyasəti ilə zamanı dəyişərək, bizim xeyrimizə işləməyə məcbur etdi. O, vaxtında zamanın nəbzini tutaraq müqəddəs torpaqlarımızın xilaskarına çevrildi. Xalqımızın çoxdankı ən ümdə istəyini gerçəkləşdirdi.**

**Xalqımızın birliyinə arxalanan böyük rəhbər, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin başçılığı altında 27 sentyabr 2020-ci il tarixi xilas gününün başlanğıcı oldu. Qısa zaman kəsiyində Onun başçılığı altında Azərbaycan Ordusu mənfur erməni faşistləri tərəfindən işğal olunmuş əzəli torpaqlarımız azad olunmağa başladı. Bu xilaskar missiyası xalqımızın dünyagörüşünü, təfəkkür tərzini dəyişərək əsl milli oyanış üçün mühüm zəmin yaratdı.**

**Ulu Öndər Heydər Əliyevin layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün fəaliyyəti xalqımızın və Vətənimizin inkişafına yönəlmiş xidmətləri hər cür alqış və yüksək mükafatlara layiqdir. Odur ki, təklif edirəm ki, xalqımızın və Vətənimizin yeni tarixini yazan bu fədakar, vətənpərvər insanın adı Xankəndinə verilərək, bu şəhərin adı İlhamabad olsun. Zənnimcə cənab Prezidentin etdiyi son addımlar əsl qəhrəmanlıq nümunəsi hesab olunmalıdır. Buna görə də təklif edirəm ki, Prezidentimiz Milli Qəhrəman adı ilə təltif olunsun.**

**Ağcabədi**

## *TƏBİB: Qripə qarşı vaksinasiya COVİD-ə yoluxmanın azalmasına təsir göstərməyəcək*

**Azərbaycanda qripə qarşı vaksinasiyanın aparılması birbaşa COVİD-ə yoluxma sayının azalmasına təsir göstərməyəcək.**

Bunu Trend-ə TƏBİB-in Elmi Komitəsinin sədri, Elmi Tədqiqat Profilaktika İnstutunun direktor müavini, professor Akif Qurbanov deyib. A.Qurbanov əlavə edib ki, vaksinasiyanın aparılması insanlarda sadəcə COVİD-lə eyni zamanda qripə yoluxmanın baş verməsi ehtimalını azaldacaq:




"Bu vaksinasiya ona görə edilir ki, qriplə birlikdə yoluxmanın olduğu zaman COVİD insanda daha da ağırlaşma yaratmasın: "Vaksinasiya ən azından bu sahədə müəyyən qədər işlər görəcək. Amma qripə qarşı vaksinasiyanın aparılması COVİD-ə yoluxmaya birbaşa təsir göstərmir".

Qeyd edək ki, oktyabrın 12-dən 2020-2021-ci ilin payız-qış mövsümündə ölkədə qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlərin, həmçinin infeksiya üzərində epidemioloji monitorinqin gücləndirilməsi məqsədi ilə vaksinasiya tədbirlərinə başlanılıb. Bu vaksinasiya tədbirləri tibb işçiləri - həkim və orta tibb personalı, hamilə qadınlar, xroniki tənəffüs sistemi xəstəliyi olan 6 aydan böyük uşaqlar, orta və yaşlı insanlar üçün keçirilir. Vaksinasiya tədbirləri bir ay ərzində həyata keçiriləcək.

## *Alimlər nikotinin Parkinson xəstəliyi və koronavirusa qarşı faydalarını kəşf ediblər*



**Dünyanın müxtəlif ölkələrindən olan elm adamlarının apardığı araşdırma nəticəsində məlum olub ki, nikotin Parkinson xəstəliyi, demensiya (ağılın zəifləməsi) və koronavirus infeksiyasının müalicəsində müsbət nəticə verir. Bu barədə "Daily Mail" agentliyi xəbər yayıb.**

Belə ki, siqaretin əsas komponenti olan nikotin Parkinson xəstələrinin hüceyrələrində dopamin istehsalını aktivləşdirir. Bununla əlavə, nikotin pomidor, bibər və badımcan tərəvəzlərinin tərkibində də mövcuddur .

Bu tərəvəzlərdən istifadə zamanı xəstəliyin inkişaf riski 30 faiz azalır. Yunanıstanlı professor Konstantinos Farsalinos apardığı araşdırma zamanı bu qənaətə gəlib ki, nikotin insanları COVID-19-dan qoruyur.

Misal üçün, Çində siqaret çəkənlər arasında koronavirus xəstəliyinə yoluxanlara nadir hallarda rast gəlinib.

Statistika bu pis vərdişə mübtəla olan insanların koronavirus infeksiyasına yoluxma ehtimalının 80 faiz daha az olduğunu göstərir.

# ƏSGƏRƏ MƏKTƏB

**Salam Əsgər!**

Mən uşaqlığımı "20 yanvar", "Xocalı faciəsi" gecələrində itirib, Vətəninin işğal olunmuş torpaqlarının tarixlərini ürək ağrısı ilə qeyd edən vaxtından əvvəl böyüyən şimallı qızıyam (Qubadan). Sovet hökuməti dövründə 10 yaşında artıq özünü dərk etmiş şagird kimi "pioner" cərgələrinə daxil edirdilər. Bizim uşaqlığımızın həmin zaman kəsiyi 1990-cı illərdən susaraq içimizə qapanıb göz yaşları ilə işğal olunmuş rayonlarımızın adlarını qəlbimizə və tariximizə gömdüyümüz vaxtlar idi. Həmin illərdən başlayaraq yurdumuzun mərd, igid oğulları hər yerdə öz qanlarıyla "Şəhidlər xiyabanı" yaratdı.Analar başına qara, ürəyinə yara bağladı, uşaqlar yetim qaldı... Bir müsəlman qadını kimi görmədiyim Allahı sevdiyim və itaət etdiyim kimi, uşaqlıq və ilk gəncliyimin bağrına qara basmış Qarabağı da uzaqdan sevib, nisgilini çəkmişəm.

Bu gün sən - ayağı yalın Xocalının bəyaz buzlu yollara gəldiyi qanlı ləpirlərinin izi ilə bütün kəndləri, şəhərləri erməni tapdağından azad edirsən. Cəbrayılı, Füzulini, Xocavəndi, Zəngilanı işğaldan azad edən Əsgərim, Şuşada yad əlində açmayan öz elində əsir qalan nazlı gülüm Xarıbülbülün həsrəti, Ruhların tərk etmədiyi abidələr diyarıAğdamımın ahı boz dumana bürünüb, yolunu gözləyir! Əziz Əsgər, sənin sayəndə Azərbaycan dövlətinin ən yeni tarixi yaranır. Azərbaycan tarixində Vətən müharibəsi yaşanılır. Azərbaycanın coğrafiyası, tarixi bərpa olunur. Bu tarixin ən böyük qurucusu rəşadətli ordumuzun Ali baş komandanıdır. Ötən əsrin əvvəllərindən başlayan, bir əsr davam edən haqsızlığı erməni faşizmini ifşa etmək, heç bir dövlət başçısına nəsib olmayan qəti qələbə tədbirlərini ilk və son dəfə əzmlə Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilir.



Bu gün Azərbaycan əsgəri bizim gələcəkdə ürəklə yaşaya biləcəyiniz tarixi günə, əzmlə vuruşaraq qələbə gününə doğru gedir.

**Yaşasın Azərbaycan əsgəri! Yaşasın Müstəqil Azərbaycan Dövləti!**

**Fidan Abdurəhmanova**
**AMEA- Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Prezident təqaüdçüsü**

## YAP Gəncədə erməni terroru nəticəsində valideynlərini itirmiş uşaqlara təqaüd verəcək



**Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) sədr müavini - icra katibi Əli Əhmədov Gəncədə erməni terrorundan əziyyət çəkən insanlarla görüşüb.**

Adalet.az-a məlumatına görə, Ə.Əhmədov Gəncədə Ermənistanın raket atması nəticəsində dağılmış ərazidə olub. Ə.Əhmədov jurnalistlərə açıqlamasında bildirib ki, erməni terroru nəticəsində valideynlərini itirmiş uşaqların hər birinə YAP tərəfindən 300 manat məbləğində aylıq təqaüd təyin edilib.

Baş nazirin müavini qeyd edib ki, təqaüdün verilməsinə gələn aydan etibarən başlanılacaq və həmin uşaqlar 18 yaşına çatana qədər davam edəcək.

**Nicat**

## "Erməni adında nə kənd, nə də qəsəbə olmayıb"

*"Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində tək ermənilər yaşamayıb axı. Orada azərbaycanlılar da yaşayıb. Xalqların öz müqəddəratını təyin etməsindən söhbət gedirsə, onlar da bu prinsiplə çıxış edə bilərlər. Bu gün işğal olunmuş Qarabağda ancaq ermənilər yaşayır.*

*Hansı xalqların öz müqəddəratını təyin etməsi prinsipindən söhbət gedə bilər? Xalqların öz müqəddəratını təyin etməsi prinsipinin mahiyyəti öz dilindən, dinindən, mədəniyyətindən istifadə etmək deməkdir, başqasının ərazisini işğal etmək deyil. Bu prinsip yeni dövlətin yaradılmasını özündə ehtiva etmir". Bu sözləri "Ədalət" qəzetinə müsahibəsində BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının müəllimi Tuqay Əliyev deyib.*

**-20-ci əsrin sonlarından başlayaraq Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və açıq-aşkar işğalçılıq siyasəti beynəlxalq hüququn norma və prinsiplərinə zidd şəkildə özünü göstərir...**

-Azərbaycan və Ermənistan 1992-ci ildə BMT-yə üzv olublar və bu iki ölkənin hər birinin sərhədləri tanınıbdır. Hər iki ölkənin sərhədlərinin müəyyən edilməsi heç bir çətinlik təşkil etmir. BMT-nin saytını açıb baxmaq kifayət edər ki, Azərbaycanın sərhədlərini müəyyən edəsən.

Bu dünya birliyi tərəfindən də tanınır. Biz bunu qabartmalıyıq. 300-400 il bundan əvvəlki xəritələri açıb nəzərdən keçirsək, görərik ki, indiki Ermənistanın ərazisində bir dənə erməni adında nə kənd, nə də qəsəbə olmayıb. Çox da uzağa getməyək, Rusiya İmperiyası dövründə mövcud olan xəritələrə baxaq. Bunlar da bir kənara qalsın, indiki halda bizi maraqlandıran əsas məsələ 1992-ci ildə üzv olduğumuz BMT tərəfindən tanınmış ərazi bütövlüyümüzdür. Odur ki, Dağlıq Qarabağ və ona bitişik 7 rayon Azərbaycanın tarixi torpaqlarıdır və heç kim deyə bilməz ki, Ermənistan tərəfindən işğal edilmiş ərazilər mübahisə doğurur.



**-Ermənistanın uydurduğu xalqların öz müqəddəratını təyin etməsi prinsipinin mahiyyəti hər kəsə bəllidir. Xalqların öz müqəddəratını təyin etməsi məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalıdır. Bax elə bundan danışaq...**

-İlk növbədə bu suala cavab tapmaq lazımdır, xalqların öz müqəddəratını təyin etməsi prinsipi ayrılmağı özündə ehtiva edirmi? Təbii ki, etmir. Bununla bağlı beynəlxalq sənədlər var. Birmənalı olaraq göstərilir ki, xalqlar öz müqəddəratını ayrılmaq yolu ilə təyin edə bilməzlər. Xalqların öz müqəddəratını təyin etmək prinsipindən söhbət gedirsə, Ermənistan niyə ancaq xalq adı altında ancaq erməniləri nəzərdə tutur? Prinsip axı xalqların öz müqəddəratını təyin etməsini özündə ehtiva edir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində tək ermənilər yaşamayıb axı. Orada azərbaycanlılar da yaşayıb. Xalqların öz müqəddəratını təyin etməsindən söhbət gedirsə, onlar da bu prinsiplə çıxış edə bilərlər. Bu gün işğal olunmuş Qarabağda ancaq ermənilər yaşayır. Hansı xalqların öz müqəddəratını təyin etməsi prinsipindən söhbət gedə bilər? Xalqların öz müqəddəratını təyin etməsi prinsipinin mahiyyəti öz dilindən, dinindən, mədəniyyətindən istifadə etmək deməkdir, başqasının ərazisini işğal etmək deyil. Bu prinsip yeni dövlətin yaradılmasını özündə ehtiva etmir.

**-Ötən illər ərzində Ermənistan BMT tərəfindən qəbul edilmiş 4 qətnaməyə də məhəl qoymadı...**

-Sözün düzü, 4 qətnamənin niyə icra olunmamasını mən də anlaya bilmirəm. BMT qəbul etdiyi qətnamələrə görə məsuliyyət daşıyırdı. Odur ki, bu gün münaqişənin aktiv fazaya keçmə səbəbkarlarından biri də elə BMT-dir. Cənab Prezidentin də dediyi kimi, artıq status-kvo yoxdur.

Biz onu döyüş meydanında dəyişmişik. 30 ilə yaxındır ki, gözlədik, bəlkə, bu qətnamələrə riayət olunar, amma olunmadı. Azərbaycan bu gün haqq savaşındadır və öz torpaqlarını düşməndən azad edir.

**Rövşən Tahir**

## 25 müəssisəsdə kobud qayda pozuntuları aşkarlanıb

**Ölkəmizdə hərbi vəziyyətin elan olunduğu, eyni zamanda xüsusi karantin rejiminin davam etdiyi bir şəraitdə əhalinin sağlamlığı və təhlükəsizliyinin təmin olunması bizlərdən müharibə dövrünün şərtlərinə uyğun olaraq xüsusi yanaşma və məsuliyyət tələb edir. Xüsusilə, qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri xəstəliyin yayılmaması üçün əks-epidemik tədbirlərə ciddi riayət etməli, insanların sıx toplaşdığı ictimai iaşə müəssisələrində karantin rejiminin tələblərini daim diqqət mərkəzində saxlamalıdırlar.**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) bildirilib ki, agentlik əməkdaşları tərəfindən bu sahədə aidiyyəti qurumlarla birgə həyata keçirilən yoxlama-nəzarət tədbirləri zamanı, təəssüflər olsun ki, bəzi ictimai iaşə müəssisələrinin sahibləri və müştərilər tərəfindən bir sıra qaydalara əməl edilmədiyi aşkar olunur.

Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş koronavirusun (COVID-19) profilaktikasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədilə, AQTA tərəfindən ictimai iaşə müəssisələrində reydlər davam etdirilir. Belə ki, AQTA əməkdaşları tərəfindən 20 oktyabr 2020-ci il tarixində Bakı, Sumqayıt şəhərləri, Abşeron rayonu, eləcə də koronavirus (COVID-19) yoluxmalarının artması müşahidə olunan şəhər və rayonlar (Gəncə, Şəki, Quba, Lənkəran, Şəmkir, Cəlilabad, Sabirabad) üzrə 382 ictimai iaşə obyektində 610 monitorinq keçirilib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən 25 ictimai iaşə müəssisəsində Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb.

Aparılan reydlər zamanı sahibkarlıq subyektlərində, əsasən, işçi heyətin və müştərilərin tibbi maskadan istifadəsinə nəzarət edilməməsi, həmçinin pandemiya dövründə ictimai iaşə müəssisələrinin qida qəbulu zallarında müştəri qəbulu zamanı adambaşına müəyyən edilən sıxlıq normalarına riayət olunmaması ilə bağlı nöqsanlar aşkarlanıb.

"Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Nazirlər Kabinetinin 6 iyul 2020-ci il tarixli 237 saylı Qərarına əsasən, qida qəbulu zallarında oturacaqların ara məsafəsi eyni masa arxasında 1 metrdən, masalararası məsafə isə 2 metrdən az olmamalıdır.

Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrində müştəri qəbulu qüvvədə olan norma və qaydalardan 2 dəfə az olmalı və müvafiq olaraq, adambaşına müəyyən edilən sahə ikiqat artırılmalıdır.

**Unutmaq olmaz ki, koronavirusla effektiv mübarizə tədbirləri nəticəsində əldə olunmuş müsbət tendensiyanın davam etdirilməsi üçün bu qəbildən olan tədbirlərin daim diqqət mərkəzində saxlanması və mütəmadi qaydada qabaqlayıcı tədbirlərin həyata keçirilməsi vacib şərtlərdəndir.**

**Eminquey**

## Hər dayanacaq, hər avtobus bir terror mənbəyi, koronavirus yuvasıdır



**Qarabağ uğrunda hamımız öz şəxsi problemlərimizi bir kənara qoymuşuq. Hamımız Qarabağdan yazırıq, ürəyimiz döyüşçülərimizin yanında döyünür. Onların ağrısını hiss edir, sevincini bölüşürük.**

**Arxa cəbhədə, yəni Bakıda problemlər hələ də öz döyüş bayrağını heç kəsə vermək niyyətində deyil. Ən böyük problem isə nəqliyyat problemidir.**

**Bir neçə gün öncə koronavirusa yoluxanların sayının artması səbəbilə metronun fəaliyyəti dayandırıldı. Biz yaxşı bilirik ki, bu həm də müharibə şəraitində baş verə biləcək bədbəxt hadisələrin də qarşısını almaq üçün atılmış addımdır. Dəstəkləyirik.**

**Amma...**

**BNA-nın bir qurum kimi iflicliyi vadar edir ki, arabir qayıdaq cəbhənin bu üzündəki problemlərdən yazmağa.**

**Metro bağlanan gündən şəhərin yerüstü nəqliyyat sistemi düyünə düşüb. Avtobuslar loru dildə desək, çatdıra bilmir. Sərnişinləri öz ünvanına. Nədən ki ləng işləyirlər. Bilirsiniz, komendant rejimi günümüzü ən azı 9 saat geri salıb. İşdən çıxıb evə getmək müşkülə dönüb.**

**Avtobus dayanacaqları izdihamlı, avtobuslar isə basabas.**

**Axşam saat 18:00-dan sonra avtobuslar elə olur ki, yarım saatdan bir gəlir. O da ki ağzına dolu adam.**

**Bəs, bu izdiham, bu basabas təhlükə deyilmi?**

**Bir-birinin ağzına girən adamlar virus yaymırmı?**

**DTX-nın dönə-dönə xəbərdarlıq etdiyi bir vaxtda ki, çox adam olan yerlərdə durmayın, bu izdihamlar, basabaslar təhlükə mənbəyi deyilmi?**

**Evə basabas, avtobus qıtlığı ucbatından 10-un yarısı çatan adamı komendant rejiminə əməl etmədiyinə görə saxlamaq caizdirmi?**

**Metronu bağlayandan sonra marşrut xətlərində avtobusların sayının artırılması labüd deyilmi?**

**İllərdir yazıram, 165 nömrəli avtobus Bakının ən uzun xəttə sahib olan ən bərbad marşrut xəttidir. Maşınları nasaz, sürücülər nataraz, işləri isə yaz, yaz soyumayacaq qədər bərbad. Nə baxan var, nə də düzəldən.**

**Hər dayanacaq, hər avtobus bir terror mənbəyi, koronavirus yuvasıdır.**

**BuNA da şükür demək istəyərdim, amma olmur...**

**Ümid edirəm ki, Mais Ağayev ondan açıqlama almaq istəyəndə "filan saytdan götürün" demək əvəzinə, bu problemin çözülməsinə çalışacaq.**

**Hər halda, bizdən deməkdir.**

**Təkrar da olsa...**

## VƏTƏN MƏNƏ OĞUL DESƏ...

### *Anar Eyvazov: Bəzi vətəndaşların sosial şəbəkələrdə hərbi məlumatları yayması hərbi sirri pozur*



***Müdafiə Nazirliyi vətəndaşlara müraciət edib. Adalet.az-ın məlumatına görə, Müdafiə Nazirliyinin Mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov bildirib ki, bəzi vətəndaşların sosial şəbəkələrdə hərbi məlumatları yayması hərbi sirri pozur və bu, hərbçilərimizin həyatına təhlükə yarada bilər:***

***"Ona görə də yalnız rəsmi məlumatların yayılması məsləhətdir. Vətəndaşlardan xahiş edirik ki, bu məsələdə diqqətli olsunlar, hərbi sirr olan və təsdiqlənməmiş məlumatlar paylaşmasınlar. Azərbaycan Ordusu tezliklə torpaqlarımızı işğaldan azad edəcək. Qələbə bizimlədir".***

### *Ermənistan silahlı qüvvələrinin Qubadlı istiqamətindəki bölmələri məhv edilib*

***Qubadlı istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun artilleriya bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bölmələri məhv edilib. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən Adalet.az-a məlumat verilib.***

### *Düşmənin yüksək rütbəli zabitləri və taborların şəxsi heyəti məhv edildi: Ermənilər geri çəkilir*

***Cəbhədə oktyabrın 21-nə olan son vəziyyət açıqlanıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək, geri çəkilməyə məcbur edilib. 5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborunun şəxsi heyəti ilə birlikdə məhv edilib. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar var. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da var.***

### *Müdafiə Nazirliyi cəbhədəki son vəziyyətlə bağlı məlumat yaydı*

***Oktyabrın 20-i gün ərzində və 21-ə keçən gecə cəbhənin Ağdərə, Füzuli- Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib.***

***Bu barədə Azərbaycanın Müdafiə Nazirliyi məlumat yayıb.***

***Bildirilib ki, düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.***



Ramiz
MƏMMƏDZADƏ

## AGDAM HAQQI, GƏLİRİK EYY!

Agdam, mənim varlığımsan,
Həyatımın əzəlisən!
Sən bizim Xan Qarabağın
Sevgili ag gözəlisən!
Qucağında qatar - qatar
Gümüşpapaq ağ damların,
İstiqanlı, sədaqətli,
Səxavətli adamların...
Ədəbiylə, ədasıyla
Kişilərin xandı, bəydi.
Gözü çıxsın ermənin
Agdam, sənə gözü dəydi...
Sən necə də bəxtəvərdin,
Yox etmişdin qəmi, dərdi.
Torpağına düşən daşlar
Sünbül kimi göyərərdi...
Şahbulağın, Gülablının
Bizimlədir yarıcanı...
Sən - müqəddəs son beşiyi
Pənah xanın, Natəvanın...
Sənə dəyən güllələrdən
Sinəm güllə-gülədi, bax...
Məscidlərin nə gündədir,
Fəryadını görmür Allah?!



Ağdam, sənə salam olsun
Türkün böyük ellərindən!
Gözlə, gəlib öpəcəyəm
Güllə dəymiş əllərindən!
Bu döyüşlər - taleyimiz!
Cəngdə pələng balasıyıq!
Allah haqqı!
Agdam haqqı!
Agdam! Sənin
Qisasını alasıyıq!

Agdam!
Agdam!
Allah haqqı, Adın haqqı
Gəlirik eyy!!!

15 oktyabr 2020-ci il -
Şüvəlan

## GƏNCƏM MƏNİM, CANIM MƏNİM!



Sənə qurban, Gəncəm mənim!
Sənə qıyan zəlil olsun!
Bu əntərlər, əcinnələr
kahaları qoy kül olsun!
Sən həmişə məğrur, dönməz,
Sən həmişə mehribansan.
Millətimin qeyrətindən
Güc almısan zaman-zaman!
Nizaminin, Cavad xanın,
Qədim yurdu, başın uca!
Haylar qaçar, igidlərin
üfüqlərdən boylanınca!
Cəngavərlər səltənəti
Eşqin - Vətən, Andın - Vətən!
Qarabağın haqq yolunda
Kişi kimi döyüşürsən!
Qurban sənə, Gəncəm mənim
Birdən göydən od ələndi...
Gecəyarı oğlun, qızın
Bombalandı, güllələndi...
Sən də eşit, əsgər balam
Qır bu şeytan sürüsünü!
Vur bu şeytan sürüsünü,
elə indi!
Vur, vurduğun adam deyil-
ermənidi - düşmənindi!
Gəncəm mənim -
Canım mənim!..

Şüvəlan, 18 oktyabr 2020-ci il -
Vətən müharibəsi günləri...

# Əsir düşən laçınlı balası

**I Qarabağ müharibəsində Kərkicahan işğal olunan zaman əsir düşən əsgərlərimizə ermənilər ağır işgəncələr verirdi. Milli Qəhrəman Allahverdi Bağırov bu əsirlərin yerlərinin müəyyənləşdirilməsi və azad edilməsi üçün çox çalışırdı. Əsir və itkin düşən döyüşçülərin və mülki vətəndaşların valideynləri və yaxınları ümidlə əsirlərin geri qaytarılmasını gözləyirdilər.**

Sumqayıtdan Mehman adlı bir döyüşçünün anası 2 aya yaxın idi ki, ümidlə oğlunun əsirlikdən azad ediləcəyini gözləyirdi. Nəhayət uzun çalışmalardan sonra Allahverdi Bağırov ermənilərdən geri aldığı əsirlərin içində Mehman da var idi.

Qərargahda başına gələnlər, verilən amansız işgəncələr barədə danışan Mehmandan digər, yəni Laçından olan ata və ana oğlu barədə bir məlumatı olub-olmadığını soruşur. Mehman onunla bir yerdə əsir düşdüyünü və bir yerdə işgəncələrə məruz qaldığını bildirir (Onun çox dözümlü olduğunu, işgəncələr zamanı dayanmadan erməniləri söydüyünü və "Qarabağ bizimdir, onsuz da sizi bu torpaqlardan qovacağıq" dediyini bildirirdi).

Mehmanın dediklərindən:

- Bir neçə gün əvvəl dediklərinə görə Yerevandan xüsusi gətirilmiş cəza dəstəsi növbəti dəfə bizi ağır işgəncəyə məruz qoydu. Laçınlı qardaşımız mərdliklə işgəncələrin qarşısında əyilmirdi və son nəfəsinədək erməniləri terrorçu adlandıraraq söyürdü. Ona görə də əsirlərin içərisində ən çox, bəlkə də saatlarla işgəncəyə məruz qalan o idi. Demək olar ki, bütün sümüklərini sındırmışdılar. Ermənilər bizə heç bir tibbi yardım göstərmirdilər. Bizə nəzarət edən ermənilər deyirdilər ki, bu Yerevandan gələnlər buna icazə vermir. Ağır travmalar alan Laçınlı balası dünən aldığı ağır zədələrdən sonra dünyasını dəyişdi.



Səhərsi gün həmin laçınlı balasının da cəsədi alınıb Ağdam məscidinə aparıldı. Uşaqlar Allahverdiyə cəsədin bütün sümüklərinin sındığını, acınacaqlı vəziyyətdə olduğunu bildirdilər. Allahverdi onun atasına oğlunu o vəziyyətdə görməməsi üçün məsləhət gördü ki, hazırlayıb tabuta qoysunlar, sonra aparaq dəfn edək. Oğlunun cəsədinin məscidə gətirildiyini eşidən anası özünü saxlaya bilməyib ağlamaq istədi, lakin atası çönüb necə baxdısa, ananın səsi boğazında qaldı. Və atası təkidlə mütləq oğlunun meyidinə baxacağını bildirdi. Məscidin yuat yerində oğlunun meyidinə tükü belə tərpənmədən baxan ata, yuyucudan xahiş etdi ki, onun kürəyini göstərsin. Kürəyinə baxandan sonra yenə də təmkinini pozmadan çölə çıxan ata onu müşayiət edən Allahverdinin müavininə:

- Bilirsən nəyə görə onun kürəyinə baxdım? Mənim oğlum düşmənə arxa çevirə bilməzdi. Əgər onun kürəyində güllə yarası olsaydı, mən ondan imtina edərək meyidini aparmazdım.

Bu hadisəni iş yoldaşımız I Qarabağ müharibəsində Eldar Bağırovun başçılığı ilə könüllü müdafiə dəstələrinin yaradılmasında iştirak edən müavini, Eldarın qətlindən sonra könüllü müdafiə batalyonuna rəhbərlik edən Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun müavini Rüstəm Hacıyev danışdı. Ümumiyyətlə, müharibə dövründə əsirlikdən azad edilən vətəndaşlarımızın ümumi qeydiyyatı aparılırdı. Allahverdi Bağırovun ölümündən sonra baş verən hadisələrdən dolayı həmin sənədlərin kimdə qaldığını müəyyənləşdirmək mümkün olmadı. Ona görə də bu cür şücaət göstərmiş laçınlı balasının və eləcə də digər qəhrəmanlarımızın adları əlimizdə yoxdur. Bəlkə bu yazını oxuyan Allahverdi Bağırovun digər silahdaşlarından kimlərinsə bu hadisə və qəhrəmanımızın adı yadında qalmış olar. Hər halda, bildirsələr onlar haqqında daha geniş məlumatlar ala bilərik.

Rüstəm müəllim bu hadisəni danışanda o dəqiqə yazmağa başladım. Bir laçınlı balasının göstərdiyi şücaət, atasının oğlunun ölümünə baxmayaraq belə mərdlik göstərməsi, özünü dik tutması bu gün də hamıya örnək olmalıdır.

**Allah şəhidlərimizə, qəhrəmanlarımıza rəhmət eləsin!**

**Eminquey**

# İki cəbhədə döyüşənlər: Pandemiya və erməni terroruna qarşı ...

**Artıq 24 gündür ki, Azərbaycan xalqı böyük, amma şərəfli bir imtahan verir. Sentyabrın 27-si səhər saatlarından başlayan Azərbaycan torpaqları uğrunda döyüşlər artıq uğurla və sürətlə davam etməkdədir.**

### *Terrorçulara qarşı*

Azərbaycan ordusunun düşmən üzərindəki üstünlükləri xalqda böyük ruh yüksəkliyi yaradıb. Buna baxmayaraq, nanəcibliklərі, namərdlikləri, vəhşilikləri ilə dünyada analoqu olmayan bir toplumun əməllərinin insanlığa qarşı yönəldiyinin fərqindəyik. Çünki işğalçı ölkənin silahlı qüvvələri dinc Azərbaycan əhalisinin sıx olduğu əraziləri ağır artilleriyadan atəşə tutur. Demək olar ki, hər gün təmas xəttində yerləşən Tərtər, Goranboy, Ağcabədi, Ağdam və digər təmas xəttindən uzaq şəhərlərə Ermənistan ağır artilleriyadan atəş açır. Bu atəş nəticəsində 40-a yaxın vətəndaşımız həlak olub, yüzlərlə soydaşımız yaralanıb, üç minə yaxın ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan dəyib. Ağdam bölgəsində, təmas xəttində yaralanan əhali- dinc sakin həyatını ağdamlı həkimlərin şəfalı əllərinə etibar edir. Məsələn, Ağdam rayonunun Mirəşelli kənd sakini 1997-ci il təvəllüdlü Eşqin Allahyarov müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirildi. Eşqinin qarın boşluğundan keçən və qolundan aldığı qəlpə yaraları ağır olsa da, dərhal əməliyyata götürüldü, qəlpələr çıxarıldı, həkimlərimiz onun həyatını xilas etdi.Hazırda E. Abdullayevin həyatı üçün heç bir təhlükə yoxdu.

Bir sözlə, Ali Baş Komandanın sözü ilə desək, ancaq bu olanlar, ermənilərin bu namərd hərəkətləri Azərbaycan xalqının iradəsini qıra bilməz, sındıra bilməz.

***Bilirsiniz ki, qadınların qocaların , uşaqların təmas xəttindən, daha doğrusu mütəmadi mərmi atəşlərinə məruz qalan ərazidən müvəqqəti olaraq kənar rayon və kəndlərə sığınmasının vacibliyi müharibənin gedişatının zəruriliyindən irəli gəlir. Bu səbəbdəndə, ümumi sığınacaqlarda, məktəblərdə, uşaq baxçalarında təmas xəttindən gələn əhali kompakt şəkildə məskunlaşıb. Ordumuzun tam qələbəsindən sonra yenidən öz evlərinə dönəcək, təsərrüfatları ilə rahat məşğul olacaqlar. Həmin günə çox az vaxt qaldı!***

### *Yenidən pandemiya...*

Hələlik isə qeyd edək ki, Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma hallarında kəskin artım müşahidə olunması ilə bağlı növbəti dəfə mövcud sanitar-epidemioloji vəziyyət nəzarətə götürülüb.



Bu üzdən xüsusi karantin rejimi çərçivəsində Ağdam rayonunda da bir sıra tədbirlər həyata keçirilməkdədir. Hətta ötən pandemiya dövründə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, rayon polis şöbəsinin rəisi Pərviz İsmayılov, rayon prokuroru Vasif Süleymanov mobil qrupun üzvləri ilə birlikdə

Respublika Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Nazirlər Kabineti yanında Operativ Qərargahın sərtləşdirilmiş karantin rejimi tətbiq edilməyən bölgələrdəki vəziyyətlə bağlı Baş Nazir Əli Əsədovun sədrliyi ilə keçirilən geniş tərkibli videomüşavirədə verilən tapşırıqlara uyğun olaraq rayon ərazisində reydlər keçirdilər. Onlar sakinlərlə, ictimai nəqliyyatdan istifadə edən sərnişinlərlə, qida məhsulları satılan ticarət obyektlərində, ictimai-iaşə obyektlərində çalışan şəxslərlə görüşüb, vətəndaşlarla maarifləndirici söhbətlər aparmışdılar.



Sakinlərə xəstəliyin yayılmasının qarşısının alınması üçün sosial məsafənin qorunması və tibbi maskalardan istifadənin zəruri olduğu, gigiyenik qaydalara düzgün riayət olunması tövsiyyə olunmuşdu.

Karantin qaydalarına əməl etməyənlərin haqqında ciddi şəkildə inzibati cəza tədbirləri görüləcəyi diqqətə çatdırılmışdı. Qeyd edək ki, pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ qərərgahın göstərişinə əsasən rayonda koronavirus pandemiyasına qarşı mübarizə aparmaq üçün hər birində 4-5 nəfər olmaqla 18 mobil qrup fəaliyyət göstərib.

***Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq qərar və sərəncamlarına uyğun olaraq koronovirus pandemiyasına qarşı mübarizə tədbirlərinin tətbiq olunmasına nəzarəti gücləndirmək məqsədilə rayon ərazisində mütəmadi olaraq reydlər davam etdirilir.***

### *İki cəbhədə döyüşənlər*

Ağdam Rayon Mərkəzi Xəstəxanasının təşəbbüsü ilə ərazidə yerləşən bütün evlərdə, sığınacaqlarda, məktəb və uşaq baxçalarında yerləşdirilmiş dinc əhali mütəmadi olaraq, Ağdam Təxirəsalınmaz Təcili Tibbi Yardım Stansiyası həkimləri tərəfindən nəzarətdə saxlanılır, müayinələr, laboratoriya analizləri aparılır. Xəstələr xüsusi karantinə alınır və müəyyən tədbirlər aparılır. Ağdam Təxirəsalınmaz Təcili Tibbi Yardım Stansiyasının həkimi Səadət Feyziyeva bizimlə söhbətlə bildirdi ki, həkimlərimiz hələ müharibə başlamamışdan əvvəl də gücləndirilmiş iş rejimində işləyirdilər və rayon ərazisində COVİD-19 virusuna yoluxduğu güman olunan xəstələrdən yaxma götürüb xüsusi laboratoriyaya aparmaq, vaxtında əhalinin sağlamlığının qayğısına qalmaq boynumuzun borcudur:" Bizim həkimlər- stansiyanın bütün əməkdaşları artıq iki cəbhədə döyüşürlər. Baxmayaraq ki, özümüzə də həyatı təhlükə yarana bilər. Bununla belə hər zaman öz peşə fəaliyyətimizi şərəflə və nöqsansız yerinə yetirməyə çalışırıq".

**Azərbaycan Ordusu tərəfindən Ermənistanın silahlı qüvvələrinin işğalçılıq niyyətlətinin qarşısının alınması qürurverici bir haldır və eyni zamanda cəbhə bölgəsində yaşamaq da, işləmək də olduqca çətin, həm də şərəflidir. Burada adamların bir xo şsözə,isti baxışada ehtiyacıvar.Bunu doğma mövqedən yüksək dəyərləndirən Ağdamın səhiyyə nümayəndələri rayon əhalisində nöz şəfqətlərini əsirgəmir, hər birxəstənin dərdinə dərman,hər biryaralının yarasına məlhəm olmaqdan məmnundurlar.**

**Əntiqə Rəşid**
**"Ədalət"qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

# "Başımda 5 ədəd qəlpə gəzdirirəm"

***"Artıq düşmən postları ələ keçirilmişdi ki, onlar geri çəkilmişdilər ki, başladılar bizə artilleriyadan atəşlər açmağa. Artilleriya mərmisinin yanımıza düşməsi nəticəsində bir partlayış oldu və mən bütün bədən nahiyəmdən, əsasən də başımdan yaralandım". "Ədalət" qəzetinin qonağı ehtiyatda olan kapitan, Qarabağ qazisi Hikmət Məmmədovdur.***

### *"Azərbaycan əsgəri öz gücünü göstərdi"*

**-Hikmət bəy, zəhmət olmasa, özünüzü təqdim edin...**

-Aprel döyüşləri iştirakçısı, Qarabağ qazisi, ehtiyatda olan kapitanam. Uşaqlıqdan hərbçi olmaq istəmişəm. Ailəmdə, həqiqətən, vətənpərvərlik hissi var. İlk Qarabağ döyüşləri başlayanda mən 1-ci sinfə gedirdim. Söhbət 1992-ci ildən gedir. Həmin dövrdə müəllimlər bizi tibb məntəqələrinə aparıb döyüşlərdə iştirak edərək yaralanmış əsgərlərlə görüşdürürdülər. Evdən həmin insanlar üçün əlçək, corab və digər şeylər götürüb aparırdıq. Keçirdiyim uşaqlıq illəri təbii ki, Vətən eşqinin daha da alovlanmasına səbəb olurdu. Özümü dərk etməyə başlayanda Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almaq istədim. 9-cu sinifdə oxuyanda imtahan verib qəbul oldum. Daha sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsilimi davam etdirdim və buranı da bitirdikdən sonra leytenat hərbi rütbəsi alıb cəbhə bölgəsinə təyin olundum. 2008-ci ildən 2016-cı ilə qədər cəbhə bölgəsində xidmət elədim.

**-Aprel döyüşləri ilə bağlı xatirələrinizdən danışaq...**

-Aprel döyüşləri ilə bağlı xatirələrim çoxdur. O xatirələr həm kədərlidir, həm də sevincli. Kədərli ona görə ki, şəhid yoldaşlarımız oldu, əsgərlərimiz, xidmət etdiyimiz hərbçi yoldaşlarımız şəhid oldu. Sevincli ona görə ki, düşmən tapdağı altında olan torpaqlarımızın müəyyən bir hissəsini azad etdik. Bu bizim üçün şərəf oldu. Aprel döyüşlərində Azərbaycan Ordusu, Azərbaycan əsgəri öz gücünü göstərdi, Vətənə olan sevgisini göstərdi. Aprel döyüşləri barədə nə qədər danışsan, bitməz. Mən Lələtəpə istiqamətində döyüşlərdə iştirak etmişəm. Həmin ərazidə olan erməniləri oradan uzaqlaşdırdıq. Bilirsiniz ki, Aprel döyüşlərində Lələtəpə və Talış yüksəklikləri Azərbaycan Ordusunun



nəzarəti altına keçdi. Həmin ərazilərin azad edilməsi bizim üçün böyük uğur idi.

### *"Başımda müəyyən hissədə sümük yoxdur"*

**-Necə oldu ki, yaralandınız?**

-Artıq düşmən postları ələ keçirilmişdi ki, onlar geri çəkilmişdilər ki, başladılar bizə artilleriyadan atəşlər açmağa. Artilleriya mərmisinin yanımıza düşməsi nəticəsində bir partlayış oldu və mən bütün bədən nahiyəmdən, əsasən də başımdan yaralandım. Qəlpə yarası bədənimin çox yerindədir. Əlimə, ayağıma, qarnıma belə tikişlər qoyulub. Ən ağır yaranı başımdan aldım. Zərbə nəticəsində baş sümüyüm sınmışdı. Partlayış olanda yerı yıxıldım. Partlayışın təziqi məni kənara atmışdı. Yerdən qalxmaq istəyəndə qan itkisinə görə qalxa bilmədim. Lakin özümü itirməmişdim. Həmin vaxtı tağım komandiri Afiq Rizvanlını çağırdım. Gəldi, məni qaldırdı. O da rabitə vasitəsilə tibb maşınını çağırdı və məni maşına qoyub Hospitala apardılar. Orada ilkin müdaxilə edilsə də, ağır yaralandığım üçün mən və bir neçə nəfəri helikopterlə Bakıya gətirdilər. Nicat İsgəndərov adında döyüş yoldaşım var idi ki, onunla orada tanış olmuşdum, Allah rəhmət eləsin şəhid oldu. Nurlan var idi, zabit yoldaşım, o da yaralandı. Afiqin özü elə ayağından yaralanmışdı. Lakin buna baxmayaraq yaralı-yaralı döyüşürdü. O qədər döyüş yoldaşlarım olub ki, hər biri ayrı-ayrılıqda mərd oğullar.

**-Bildiyim qədərilə başınızda qəlpə var. Ağrılar olurmu?**

-Bəli, başımda 5 ədəd qəlpə gəzdirirəm. Vətən sağ olsun. Vətən üçün sağlığımızla bağlı itirdiklərimizə görə təəssüflənmək olmaz. Ağrılara qalanda, əlbəttə ki, olur. Başımda müəyyən hissədə sümük yoxdur. Ağrılarsız mümkün deyil. Tez-tez ağrılar olur, neyləyək, iynə-dərman ilə keçinirik. Həyat davam edir.

**-Azərbaycan Ordusuna ürək sözləriniz...**

-Ordumuz haqqında nə qədər söz desəm, azdır. Azərbaycanın şanlı Ordusu öz gücünü düşmənə göstərir. Azərbaycan əsgəri qüdrətlidir, qəhrəmandır. Azərbaycanın rəşadətli Ordusu düşmənə layiqli cavab verir. Azərbaycan Ordusunun qüdrəti onsuz Aprel döyüşlərindən bəlli idi. Əminəm ki, Azərbaycan əsgəri son erməni əsgərini öldürənə qədər döyüşəcək. Bu gün əsgərlərimizin məqsədi şəhid olmaq deyil, düşməni məhv etməkdir. Necə ki, bu gün düşməni qovur və məhv edir. Düşmənin döyüşməyə gücü qalmayıb. Zənnimcə, Ermənistan döyüşləri dayandırıb qoşunlarını torpaqlarımızdan çıxarsa, yaxşıdır. Biz haqq savaşındayıq. Torpaqlarımız uğrunda vuruşuruq. Biz əzəli torpaqlarımızı, Qarabağımızı istəyirik. Bu gün ilk Qarabağ döyüşləri şəhidlərinin uşaqları onların qanını yerdə qoymur, torpaqlarımızı işğaldan azad edirlər. Bu gün xalqla ordumuz arasında böyük bir birlik var. Bu, bizim gücümüzün birliyidir. Bu gün hər peşənin sahibi öz sahəsində Vətənə xidmət edir. Ona görə biz qələbə qazanırıq. Bizim güclü Liderimiz var. Allah Ordumuzu, Xalqımızı, Cənab Prezidenti qorusun.

**Rövşən Tahir**

# BİR HÜSEYN ƏFƏNDİ VARDI...

**... Torpaqlarımız işğaldan azad edildikcə dünyasını dəyişən insanların da ruhu sevinir. Çünki onlar sağ vaxtı olanda elə həmişə Cəbrayıl deyiblər... Füzuli deyiblər... Ağdam deyiblər... Şuşa deyiblər... Laçın deyiblər... Çünki onlar o torpaqlarımızın, o rayonlarımızın, o şəhərlərimizin, o qəsəbələrimizin, o kəndlərimizin qaytarılacağına inanırdılar. Və inanırdılar ki, bu dünyada olmasalar da, haqqın dərgahına qovuşsalar da, nə vaxtsa bu xəbəri eşidəcəklər və o ruhlar sevinəcək...**

... Bu gün hamı sevinir, hamı şadlanır və hamının sevincdən gözləri dolur. Bayaq dedik axı, bu gün həm də ruhlar sevinir. O sevinən ruhlardan biri də istedadlı şair-publisist, bütün varlığıyla xalqına, millətinə, vətəninə bağlı olan böyük İNSAN və böyük ziyalı Hüseyn Əfəndinin ruhudu. Hüseyn Əfəndi həmişə Cəbrayıldan, öz doğma yurdundan, kəndindən yana-yana danışardı. Şeirlərində də, publisist yazılarında da bu dərdi, bu kədəri görmək olurdu. Heç Cəbrayıl işğal olunandan sonra Hüseyn Əfəndinin üzünün güldüyünü görmədim. Qıvrım saçları bir az da ağardı. Vətən dərdi çiyinlərini bir az da əydi. Yerişi də, duruşu da Cəbrayıldan sonra tam başqa cür oldu. Ancaq Hüseyn Əfəndinin xarakteri, xasiyyəti, Vətən sevgisi dəyişmədi. Elə həmişə olduğu kimi qürurunu qoruyub saxlaya bildi...

Mənim onunla tanşlığım universitetdə oxuduğum tələbəlik illərindən başlamışdı. Daha doğrusu, onunla məni istedadlı şair və yaxın dostum Vaqif Bəhmənli tanış eləmişdi. Vaqif Bəhmənli ilə qohum olduğumuza görə, o qədər istedadım olmasa da, yaradıcı adamlar məni çox istəyirdilər və mən də həmişə çalışırdım ki, o istedadlı adamlardan nəsə bir şey öyrənim. Onlarla görüşəndə özümü göyün yeddinci qatında hiss eləyirdim. Şeirlərini, bal kimi şirin söhbətlərini dinləyəndə dinib-danışmaz və axıra qədər bu bal kimi şirin söhbətlərə qulaq asardım. O söhbətləri, o bal kimi şirin deyimləri eşidəndən sonra ruhum və qəlbim təzələnərdi. Elə bil ki, dünyaya yenidən gələrdim.

... 80-ci illərdə istedadlı şair Məmməd İsmayıl çox gözəl bir ədəbi jurnal nəşr etdirdi. O jurnalın adı belə idi: ”Gənclik”. Jurnal 1-ci səhifəsindən sonuncu səhifəsinə qədər birnəfəsə oxunurdu. O jurnalda hər şey təzə idi; yazarların üslubu təzə idi, imzaları təzə idi və toxunduqları mövzular təzə idi. O imzaların arasında Hüseyn Əfəndinin imzası da seçilirdi. Həm şeirləri, həm də publisist yazıları adamın iç dünyasına qeyri-adi bir gözəllik, məhəbbət və Vətən sevgisi gətirirdi. Jurnalda işıq üzü görən bütün şeirlər və publisist yazılar sanki bir gün işığına bənzəyirdi. O gün işığı sənə dəyən kimi qırışın açılırdı, qəlbinə və ürəyinə nur dolurdu. Biz elə böyük sevgiylə, elə bir həvəslə o jurnalın çap olunmağını gözləyirdik ki, sanki dünyanı bizə verirdilər. O yazıları gözümüzə elə ”təpirdik” ki, sanki uzun illərdi içimizdə olan mənəvi boşluğu doldurmağa can atırdıq.



Azərbaycan poeziyasında və nəsrində çox istedadlı adamlar olub. Amma Hüseyn Əfəndi kimi istedadlı adamlar az idi. O nə qədər istedadlı şair, istedadlı publisist idisə, bir o qədər böyük İNSAN idi. Bəlkə də onun İNSANlığı, adamlığı poeziyasından və publsistikasından daha yüksəkdə dururdu. Onun dostu və istedadlı şair Əlisəmid Kürün təbirincə demiş olsaq, Hüseyn Əfəndi düşmənsiz bir adam idi. Yəni onun həyatda düşməni yox idi. Ola bilər, ədəbiyyatda rəqibi olardı, publisistikada rəqibi vardı. Ancaq cəmiyyətdə ondan xoşu gəlməyən adam yox idi. Bunu Hüseyn Əfəndini tanıyanlar məndən də yaxşı bilirlər.

Onun barəsində uzun illərdi yazı qələmə almaq istəmişəm. Ancaq yaza bilməmişəm. Cəbrayıl azad olunandan sonra sanki ürəyimdə yığılıb qalan o sözlər, o ifadələr yenidən bir işıq kimi boylandı və məni ”yaz” dedi. Mən də bu yazını yazmamışdan öncə onun iki yaxın dostu - biri Qubadlıdan olan şair-publisist, Qarabağ qazisi Tofiq Hüseynov, biri də Azərbaycanın ən istedadlı şairlərindən sayılan Əlisəmid Kür dedilər ki, onun haqqında yazı qələmə almaq istəsən çox savab iş görmüş olarsan. Üstəlik də, hər ikisi bu böyük, istedadlı şair və ziyalı barəsində eşitmədiyim söhbətləri elədilər. Çox sağ olsunlar, mənə ipucu verdiklərinə görə! Əlisəmid Kür deyir ki, ona biz hamımız Söyün deyərdik. Ürəyimizə, qəlbimizə o qədər yaxın idi ki, bilmirdik onu necə əzizləyək, onu necə ələ alaq. Hətta mənim iki misradan ibarət bir şeirim də var:

*A Söyün, əlində daş qalıb sənin,*
*Daş ölüb, baş daşım ağın ağlığı...*

Bax, beləcə, Hüseyn Əfəndiyə Əlisəmid Kür bir dost kimi dəyər verib, sevgisini bildirib. Əlisəmid Kür onu da deyir ki, Hüseyn Əfəndi ”Gənclik” redaksiyasında qaravolçu işləyəndə də dəyişmədi, baş redaktor olanda da. Biz onu necə tanımışdıqsa, elə də qalmışdı; sadə, zəhmətkeş və səmimi! Hətta bir dəfə şair Sabir Sərvan dedi ki, a Söyün qağa, sən bizə çox azadlıq vermisən. Qorxuram bu azadlıq bizi yoldan çıxara. Hüseyn qağa da özünəməxsus formada dilləndi ki, şairlər, yazıçılar həmişə azad olmalıdır. Mən özüm həmişə azadlıq istəmişəm, kollektivimə də o azadlığı gətirmişəm. Kim necə başa düşür, özü bilər...

Bir dəfə də olsun Hüseyn Əfəndi baş redaktor olanda heç kimin qəlbini qırmayıb. Çox səmimi və gözəl bir kollektiv yaradıb və oxuculara qarşı da həmişə səmimi olub. Bəlkə də dünyada səmimiyyətdən gözəl qiymətli bir dəyər yoxdur. Çünki səmimiyyət hər insanda olmur və bir də səmimiyyəti olan insanlar heç vaxt paxıllıq, xəbislik, yaltaqlıq bilməzlər.

... Tələbə vaxtı olanda yay imtahan sessiyası gəlirdi. Qiymət kitabçam rayonda qalmışdı. Mən də Bakı-Qafan qatarına minib Bəhmənliyə getdim, qiymət kitabçamı evimzidən götürüb Bakı-Yerevan qatarı ilə qayıtmaq istədim. Qatardakı 10-cu vaqona Bəhmənlidən minəndə dəhlizdə Hüseyn Əfəndini gördüm. Çox mehriban öpüşüb-görüşdük və hal-əhval tutduq. Dedim ki, ay Hüseyn, o biri qatarla gəlib bu qatarla qayıdıram. Kənddə də qatara gecikdiymə görə, çörək yeyə bilmədim. Gəl gedək vaqon-restoranında bir tikə çörək yeyək. Hüseyn Əfəndi güldü və dedi ki, a rəhmətliyin oğlu, vaqon-restoranda nə işimiz var? Keçək mənim kupemə, anam yaxşı bir toyuq soyutması bişirib. Yanında da xiyar, pomidor turşusu, göyərti, pendir, tut arağı. Heç bunu qoyub gedib o restoranda yeməyə dəyərmi? Keçdik onun kupesinə, çantanı açıb səliqə ilə süfrəyə bükülmüş bütün təamları masanın üstünə düzdü. Heç dəvət də gözləmədim. Necə acmışdımsa, toyuğun budunu qoparıb dişimə çəkdim. Sonra Hüseyn Əfəndi hərəmizə araq süzdü. Bilirdi ki, mən içən deyiləm. Amma onun təkidindən sonra 50 qram o tut arağından içdim. O dəqiqə rəngim qızardı. Hüseyn Əfəndi dedi ki, sənə araq içmək düşür. Bəlkə bir əlli də vurasan! Dedim yox, bu mənim bəsimdi. Sonra bir dostumuz da gəldi, Hüseyn Əfəndi ilə bala-bala tut arağından vurdular. Səhərə qədər yatmadıq. Bir-birindən gözəl şeirlər, lətifələr və qeyri-adi söhbətlər bizə ləzzət elədi. Hələ də həmin anlar 40 ilə yaxın bir vaxt keçsə də, mənim yadımdan çıxmır. Yadımdan çıxmayan toyuq soyutması və tut arağı deyil ey (hərçənd ki, onlar da çox gözəl idi - F.Q.), yadımdan çıxmayan Hüseyn Əfəndinin nurlu çöhrəsi, bal kimi şirin söhbəti və bir də öz elinə, obasına, vətəninə bağlılı idi. Öz kəndindən, elindən, obasından elə şirin danışırdı ki, sanki gözəl bir filmə baxırdım. Çox təəssüf ki, mənim Hüseyn Əfəndilə görüşüm gec-gec olurdu. İndi elə yanıram ki. Gərək vaxtında bu cür böyük insanlara dəyər veriləydi.

”Domino” adlı ilk şeirlər kitabının siqnal nüsxəsini sevinə-sevinə əlinə almışdı. Yenə Əlisəmid Kür deyir ki, o kitabın siqnal variantı Hüseyn Əfəndinin əlində olanda uçamağa qanadı yox idi. Elə bizim də uçmağa qanadımız yox idi. Çünki Hüseyn Əfəndinin şeirlər kitabı işıq üzü görürdü. Qəfil ölüm o kitabın çap olunmağını Hüseyn Əfəndiyə görməyə imkan vermədi. Və ölümündən sonra ”Domino” kitabı çap edildi. Biz hamımız sevindik. Hətta Hüseynin balaları da. Və Hüseynin ruhu da sevindi.

**... Onun ölüm xəbərini mənə Vaqif Bəhmənli dedi. Yerimdə donub qaldım. Heç inanmadım. Amma bir müddətdən sonra özümü ələ aldım. Və düşündüm ki, Hüseyn Əfəndi cismən ölüb, amma mənən o həmişə sağdır. Çünki o boyda İNSAN, o boyda ŞAİR, o boyda ZİYALI heç vaxt ölə bilməz. Əgər bir insan tez-tez dostlarının, yaxınlarının yadına düşürsə, deməli, o insan heç vaxt ölməyib. Ən azından Hüseyn Əfəndi bir neçə gündə həm Əlisəmid Kürün, həm Qarabağ qazisi Tofiq Hüseynovun, həm də mənim yadıma düşübsə, deməli, o, minlərlə onu sevənlərin yadına düşür, qəlbində yaşayır. Hüseyn Əfəndi, ruhun şad olsun, Cəbrayıl işğaldan azad olundu! Və Allah sənin balalarını qorusun!**

**Faiq QİSMƏTOĞLU**

---

<u>*İbrahim Yusifoğlu*</u>



## *Qıymayın uşaqlara*

**(Uşaq qatillərinə)**

**Ay, günəş istəyirlər,**
**Nur ələnsin cahana.**
**Şeh, yağış diləyirlər,**
**Təbiət gəlsin cana.**
**İstəyirlər gül, çiçək**
**Ətri çöksün hər yana.**
**Raketləri, topları**
**Tuşlamayın onlara.**
**Tanrıdan gələn səsdi:**
**- Qıymayın uşaqlara!**

**Uşaqları gül üstə**
**Kəpənəklər gözləyir.**
**Səkilərdə gəzişən**
**Göyərçinlər səsləyir.**
**Bülbüllər, qaranquşlar**
**Şux nəğmələr bəsləyir.**

**Bu rəngarəng dünyanı,**
**Boyamayın siz qara.**
**Ey insan qatilləri,**
**- Qıymayın uşaqlara!**

**Arzuları tumurcuq,**
**İstəkləri qönçədi.**
**Yaşamaq həvəsləri**
**Hər istəkdən öncədi.**
**Baxışları ovsunlu,**
**Gülüşləri incədi.**
**Dünyanın sinəsinə**
**Vurmayın ağır yara.**
**Ey insan qatilləri,**
**- Qıymayın uşaqlara!**

**Əl boyda uşaqların**
**Ömrünü söndürdünüz.**
**Gecə şirin yuxuda,**
**Yataqda öldürdünüz.**
**Neçə məsum körpəni**
**Ölümə güldürdünüz.**
**Bu vəhşi əməllərdən**
**Dünya gəlibdi zara.**
**Daha yetər, son qoyun,**
**Son qoyun terrorlara.**
**Bu Tanrının səsidi:**
**- Qıymayın uşaqlara!**

---

## *RUSİYA ÜMUMXALQLAR PARTİYASI SƏDRİNİN HABİL QURBANOVA TELEFON ZƏNGİ*

***Azərbaycanın yaxın dostu, Rusiya Ümumxalqlar Partiyasının sədri, Beynəlxalq Slavyan Şurasının sədri, Beynəlxalq Slavyan Akademiyasının Prezidenti, 2-ci və 4-cü çağırış Rusiya Dövlət Dumasının sədr müavini, hüquq elmlər doktoru, professor Sergey Nikolayeviç Baburin 19.10.2020-ci ildə telefonla zəng edərək torpaqlarımızın mənfur düşmənlərdənardıcıllıqla azad edilməsinə görə sevindiyini və tezliklə Azərbaycanın ərazi bütövlüyünün tam təmin olacağına əmin olduğunu bildirmişdir.***

***O, həmçinin bildirmişdir ki, Moskva şəhərində erməni diasporası çox fəaldır və onlar ciddi antiazərbaycan təbliğatı aparırlar. Təəssüflə bildirdi ki, bu sahədə Azərbaycan diasporası və səfirliyi çox zəif fəaliyyət göstərir.***

---

## *Qırğızıstan yenidən parlament seçkisinə gedir*

**Qırğızıstan Mərkəzi Seçki Komissiyası yeni parlament seçkisi elan edib.**

**Bu məlumatı ”Sputnik Qırğızıstan” yayıb. Yeni seçkilər dekabrın 20-nə təyin edilib.**

**Qeyd edək ki, bundan öncə Qırğızıstanda parlament seçkisi baş tutub. Seçkidən sonra ölkədə saxtakarlığa etiraz olaraq genişmiqyaslı aksiyalar keçirilib və nəticədə seçkinin nəticələri ləğv edilib, ölkə Prezidenti Sooronbay Jeenbekov isə istefaya gedib.**

**MEHRİBAN**

---



<u>*Abid Tahirli*</u>
<u>*filologiya elmləri doktoru*</u>

# Dərd dili - sözü yandıranda

**Son illər ədəbi ictimaiyyətin diqqətini çəkən və geniş oxucu auditoriyasının rəğbətini qazanan istedadlı şair Şöhlət Əfşarın vətəndaş mövqeyindən, milli təəssübkeşlikdən doğan qayğı və nigarançılığının, dil yandıran dərdlərinin, qəlbi sızladan harayının bədii ifadəsi kimi ərsəyə gələn ”Dərdnamə” kitabı (Şöhlət Əfşar. ”Dərdnamə” (poema və şeirlər), Bakı, ”Nurlar” Nəşriyyat- Poliqrafiya Mərkəzi, 2020, 160 səh) məndə ikili təəssürat yaratdı: bir tərəfdən şairin sənətkarlıq məharəti, duyğu və düşüncələrin təbiiliyi, səmimiliyi, poetik, eyni zamanda epiqonçuluq və hər cür təqliddən uzaq didaktik, irfani, canlı, cilalı dili və ənənlərlə çağdaşlığın sintezindən formalaşan üslubu xoş ovqat yaratdı, digər tərəfdənsə, şairin əsərlərində, xüsusilə onun ”Dərdnamə” adlı poemasında göstərilən halların- cəmiyyət həyatında nadanlıq, mövhumat və xürafatın bəzən, hətta maarifçilik hərəkatı dövründəki kimi, belə demək mümkünsə, ”yerində sayması”, hərdən də milli-mənəvi dəyərlərin, vətənə, torpağa məhəbbət duyğusunun harama, rüşvətə, pula, var-dövlətə dəyişdirilməsi, satılması, müstəqilliyin qədrini bilməyən yaltaq, bacarıqsız, ləyaqətsiz, ikiüzlü məmurların meydan sulaması dərin və acı təəssüf hissini daha da artırdı. Bu əsərlərin 27 Sentyabrdan başlanan Vətən Müharibəsindən əvvəl və bu tarixi hadisə ərəfəsində ərsəyə gəldiyini də əlavə etsək, poema və şeirlərin daha bir məziyyəti üzə çıxmış olacaqdır: əsərlər şairin nikbinliyinin, gələcəyə inamının, istək və arzularının, hiss və duyğularının, fəhminin tərcümanıdır.**

Şair Şöhlət Əfşar ”Dərdnamə” kitabında verilmiş eyniadlı poemanı Şərq klassiklərinə xas ”Minacat”la başlayır, Allaha sevgi və şükranlığını dilə gətirir və Uca Yaradandan ”təqvanı, ixlasını əsigəməməyi”, ”ilham pərisi”nin ona könül bağlamasını diləyir. Bir çox müasir poemalar kimi ”Dərdnamə”nin də vahid süjet xətti yoxdur, şair fikir və düşüncələrini, duyğularını oxucuya səmimi və poetik bir dillə çatdırmaq üçün maraqlı üslub seçmişdir. Poema-ithaf janrında qələmə alınan əsər istedadlı şair Barat Vüsala

”Mərhəba, Barat Vüsal, əziz dostum, qardaşım,

Ey mənim könüldaşım, sən, ey mənim dərddaşım!”-

müraciətlə başlayır və Şöhlət Əfşarın bu müraciət-monoloqu poemanın sonunadək davam edir, əsərin məzmununun, ideya-istiqamətinin üzə çıxmasına, şairin istək və arzularını, ürək çırpıntılarını, cəmiyyətdə, insanlararası münasibətlərdə, milli, əxlaqi dəyərlərdə baş verən proseslərə, aşınmalara dair mülahizələrini oxucuya dostyanə, açıq, qabarıq və bütün çılpaqlığı ilə çatdırmağa xidmət edir. Bu yolla şair oxucusunu inandırır, həyacanlandırır, düşündürür. O, dövrandan, zamanın gərdişindən şikayət edir, fikirdən, xəyaldan bezdiyini, saysız-hesabsız suallara cavab tapa bilmədiyini yazır:

*Tutqunam, pəjmürdə gözüm yol çəkir,*
*Qəm-qüssə dumanı bürüyüb məni.*
*Çəkdiyim bu çilə, iztirab nədir?*
*Ürəyim ağlımın olub düşməni.*

Şairin şikayətləri əbəs və əsassız deyil, o yaltaqlığın, yalanın, haramın, riyakarlığın, rüşvətin, acgözlüyün, xurafatın, cəhalətin, tarixi unutqanlığın soydaşlarının həyat və düşüncəsinə amansız zərbə vurduğunu, böyük bəlalar törətdiyini, elmin, mədəniyyətin, ədəbiyyatın, təhsilin tərəqqisinə buxov olduğunu, milli-mənəvi, dini dəyərlərin bərqərar olmasına əngəl törətdiyini ürək ağrısı və göz yaşı ilə qələmə alır:

*Hakim əmr qulu, vəkil alverçi,*
*Gəl, belə zamanda ədalət ara.*
*Dəstur verən ? acgöz, məmur ? dilənçi,*
*Dünyagirlik hara, ədalət hara?!*

Və yaxud,

*Dəmir çarıq geyib əlimdə əsa,*
*Gəzib ədaləti tapa bilmirəm.*
*Mənlik, qeyrət, qürur batıbdı yasa,*
*Haqqı, həqiqəti tapa bilmirəm.*

-kimi bu qəbil misralarla şair qəzəb və hiddətini sərt və sərrast şəkildə ifadə edir.

Amma bununla da kifayətlənmir, o, bu naqisliklərə qarşı od püskürür, üsyan edir:

***Nədən yad oxuna kaman oluruq?***
***Oğuz boyundanıq, türkdür dilimiz.***
***Gah ərəb, gah urus, alman oluruq,***
***Özümüz olmağa utanırıq biz!***

***Hanı sözümüzün sərkərdələri,***
***Ötən əsrimizin ağır topları?***
***Hikmət ehramıydı onun hər biri,***
***Elm idi onların sərvəti, varı.***

Və s.

Maraqlı və diqqətçəkicidir ki, şair oxucunu şikayət və üsyanı ilə təkbaşına buraxmır, ona bədbinlik aşılamır, vəziyyətdən çıxış yollarını da göstərməyə səy edir:

***Əsla, bu işlərdən sarsılmaq olmaz,***
***Onlar köpük kimi yox olacaqlar.***
***Quyu su tökməklə sulu sayılmaz,***
***Dünyada qadirlər ad qoyacaqlar!,***

yaxud ,

***Köklənib zamana, illərə, aya,***
***Dövrün ahəngiylə şur olmaq gərək.***
***Ağılın gözüylə baxıb dünyaya,***
***Elm ilə aləmə nur olmaq gərək.***

və yaxud,

***Qüdrətli eləyər xalqı, ulusu,***
***Bilim, mədəniyyət, irfan ordusu.***
***Ruhu diri tutar kamil beyinlər,***
***Turana yol açar parlaq zehinlər.-***

söyləyən şair, milləti zəlil edən mənəvi aşınma problemindən xilas etməyin yolunu elmdə, təhsildə, bunula da, şüurlarda dəyişiklik etməkdə görür.

Azərbaycanın ərazi bütövlüyü mövzusuna, Qarabağ probleminə poemada geniş yer ayrılır- deməyimiz azdır, əslində Şöhlət Əfşar nədən bəhs edirsə etsin, hansı mövzuda, hansı səpkidə yazırsa yazsın, orada Qarabağ izi, Qarabağ səsi, Qarabağ sədası, Qarabağ nəfəsi, Qarabağ sevgisi var. Qarabağ kədəri və problemindən söz açanda isə şair bu dərdlə nalə çəkir, fəryad qoparır:

***Üç yüz ildir vətən paramparçadır,***
***İrəvan talanıb, Qarabağ əsir.***
***Şuşa darmadağın, Göyçə dardadır,***
***Dədə yurdumuzda erməni gəzir.***



Vətəndaş şair soydaşlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə, ölkəmizin ərazi bütövlüyü uğrunda ayağa qalxmağa, qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər olmağa səsləyir.

Kitaba ”Dərdnamə” poeması ilə yanaşı ”Əsir qalmış ey ruhum, Qarabağım, Şuşam, oy!”, ”Heç kim dünya işin vurmadı başa”, ”Eşqdir mehrabı uca göylərin”, ”İthaflar” adı altında müxtəlif səpkili şeirlər də daxil edilmişdir.

Kitabın ”Əsir qalmış ey ruhum, Qarabağım, Şuşam, oy!” adlı bölməsinə eyniadlı şeirlə yanaşı ”Allah, bu Novruz da keçdi Şuşasız!”, ”Unutma Şuşanı, unutma, şair”, ”Ddanışma, qardaş”, ”Ölsün şair oğlun, ölsün, ey Vətən”, ”Gələcəyiz biz” kimi maraqlı, düşündürücü və təsirli əsərlər də daxil edilmişdir. Həmin şeirlərdə şair sözün yaratdığı poetik duyğu ilə oxucunun beyninə nüfuz edir, qəlbini titrədir, onu düşündürür, torpaqlarımıza göz dikən, millətimizin qanına susayan mənfur düşmənə qarşı kin, nifrət hissi oyadır:

***Xanqızı çarəsiz xəyala gedib,***
***Üzeyirin ruhu çəkilib dara.***
***Qanayıb göynəyir, dərddən qövr edib,***
***Xanın ürəyinə vurulan yara.***
***(Əsir qalmış ey ruhum,***
***Qarabağım, Şuşam, oy).***
***Şuşadan yazmasan alışar tənin,***
***Halına yas tutar qürurun, şənin.***
***Necə tab gətirər ürəyin sənin?***
***Unutma Şuşanı, unutma, şair.***
***(Unutma Şuşanı, unutma, şair).***

Kitabın ”Heç kim dünya işin vurmadı başa” adlı bölməsində toplanan şeirlər şairin iç dünyasının, düşüncə tərzinin, dünya baxışının göstəricisidir.

O, ”Amandır, dünyaynan oyun oynama”, ”Fani dünyadı”, ”Allahın bəşərə qəzəbi keçib”, ”İki dünya”, ”Ölməmək üçün” adlı şeirləri müdrik söz, tövsiyə və öyüd-nəsihətlərlə zəngindir. Şöhlət Əfşar insanları dünya malına, mülkünə aludə olmamağa, haqqa, ədalətə əməl etməyə, həyatın və yaşamağın mənasını dərindən dərk etməyə,dostluğa, xeyirxahlığa çağırır, dəvət edir, hikkəli, təkkəbbürlüləri və paxılları məzəmmət edir, qınayır:

***Dinlə məni, ey insan, sözüm var bu gün sənə,***
***Çalış, ibrət alasan, yaxşı qulaq as mənə.***
***Qibtə etmə heç kimə, həsədə olma nökər,***
***Həsəd güvə kimidir; içini yeyib tökər.***

***(Karyerist paxıllara)***

***Çox şirnikib tamah salma malına,***
***Uyub yalanına, düşmə dalına,***
***Xam köhləndir, əlin yetməz yalına,***
***Əzəldən bu dünya fani dünyadı.***

***(Fani dünyadı)***

***Ustad nə söyləsə, yaz dəftərinə,***
***Üzünə gülsə də, getmə dərinə.***
***Salarböhtanına, salarşərinə,***
***Amandır, dünyaynan oyun oynama.***

***(Dünyaynan oyun oynama)***

***Virus ürəklərə qorxu salıbdı,***
***Həkimlər çarəsiz fikrə dalıbdı.***
***Şah da, dilənçi də evdə qalıbdı.***
***Allahın bəşərə qəzəbi keçib.***

***(Allahın bəşərə qəzəbi keçib)***

Və s. və i. Məhəbbəti, insanın zərif, sağlam, saf, kövrək hiss və duyğularını ustalıqla tərənnüm edən Şöhlət Əfşar yaradıcılığında bu mövzu mühüm yer tutur.

Azərbaycan ədəbiyyatının əbədi və əzəli mövzusunda- məhəbbət poeziyası meydanında söz demək müşkül və məsuliyyətli məsələdir. O, bu vəzifənin öhdəsindən uğurla gəlmişdir və bu qəbildən olan nümunələr şairin bütövlükdə poetik məninin dəyərləndirilməsinə yardım edir. Şöhlət Əfşarın ritorikadan uzaq, eyni zamanda ehtiraslı, təsirli, səmimi şeirləri təkcə bir qəlbin çırpıntıları, sızıltıları deyil, sevənləri məhəbbətin qədrini bilməyə, onları sabaha, səadətə, sədaqətə səsləyən çoxmətləbli və dərin mənalı misralardır, şairin mənəvi dünyasının aynası, ifadəsidir:

***Sən gəldin ömrümə Haqqdan pay kimi,***
***Gündüz Günəş kimi, gecə Ay kimi,***
***Nə tez gəlib getdin bir səyyah kimi,***
***Dön geri, əzizim, möhtacam sənə.***

***(Möhtacam sənə)***

***Bəsdir, bu aləmi bizə güldürüb,***
***Sınmış bir ürəkdən nə istəyirsən?***
***Bülbülü həsrətdən nakam öldürüb,***
***Eşqin şəhidinə nəğmə deyirsən.***

***Özümü məhşərə çəkəcəyəm, bil,***
***Təpədən dırnağa dəyişəcəyəm.***
***Nə sevgin, vüsalın gərəyim deyil,***
***Daha həsrətinlə sevişəcəyəm!***

***(Əlvida)***

Bəhs etdiyimiz poema və şeirlər barədə fikirlərimizi yekunlaşdıraraq bu qənaətə gəlirik ki, cəmiyyət həyatının aktual və taleyüklü problemlərindən söz açan bu əsərlər ideya-məzmun, sənətkarlıq baxımından sanballı, dolğun, diqqətəlayiq və təsirlidir. Kitabla bağlı bir məqamı da vurğulamaq istərdik. Şöhlət Əfşar nəşrin sonunda verdiyi ”Şərh və izahlar” bölümündə kitabda adı keçən bir sıra alınma sözlər, müxtəlif tarixi hadisə və şəxsiyyətlər barədə kifayət qədər məlumat verir.

**Qəbələ, Nohurqışlaq kəndi**

**№ 119 (2153) 22 oktyabr 2020-ci il**

Azərbaycan Respublikasının
Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin
İnkişafına
Dövlət Dəstəyi Fondu

# BÖYÜK QAYIDIŞIN ASTANASINDA

**Tam səmimi şəkildə etiraf etmək istəyirəm ki, sentyabrın 27-dən sonra dövlətimə də, xalqıma da, bayrağıma da münasibətimdə ölçüyə gəlməz bir dəyişiklik var. Yəni bu dəyişikliyi 2016-nin aprel döyüşündə, 2020-nin iyul ayında Tovuz döyüşündə yavaş-yavaş hiss etməyə, duymağa, yaşamağa başlamışdım. Elə bil ki, çevrəmdə hər şey dəyişirdi. İllərlə daşıdığım qaçqın adına "torpaqları qoyub qaçdınız" töhmətinə və bir də yeri gəldi-gəlmədi, "lazım gəlsə bunu edərəm, onu edərəm deyimlərinə" o qədər yüklənmişdim ki, bunun nə vaxtsa bitəcəyinə ümidim öləzimişdi. Elə bilirdim ki, qələbə sevincini yaşamayacam... elə biliridm ki, cəbhədən xoş müjdə almayacam... elə bilridim ki, o yerləri bir də görməyəcəm...**

Amma Allahın varlığına inamım birmənalıdı! Bu gün isə Ali Baş Komandanımıza və Ordumuza güvənim birmnənalıdı. Çünki bütün ağırlığımı bir əmrlə, bir hücumla çiyinlərimdən götürüblər. Və mən demək olar ki, yuxularımın, xəyallarımın ətəyindən tutub harasa getmirəm daha.

Əksinə, yuxularımı, xəyallarımı gerçək görürm. Hər gün gözüm ekranda, qulağım səsdədi. İllah da ki, son dəqiqə xəbərlərini ac gözlüklə izləyirəm. Bu xəbərlər mənə müjdə verir, mənə yaşam stimulu verir. Sanki o xəbərlərə qoşulub özüm də həm səngərlərdə oluram, həm döyüşlərin iştirakçısına çevrilirəm. Və...

Bəli, bu gün Azərbaycan 30 illik ağrı-acını, ümidsizliyi, adamların içərisindəki xiffəti və nəhayət, artıq kök atmış həsrəti külə çevirdi, sovurdu havaya, səpdi düşmənin başına.



Həmin məqamda Ali Baş Komandan dedi ki, ***"Biz bu torpaqlara gəldik, bu, bizim dədə-baba torpaqlarımızdı.***

***Bizi oradan heç bir qüvvə çıxara bilməz. Bunu nə qədər tez anlasalar, onlar üçün o qədər də yaxşı olacaq. Çünki dayanıqlı atəşkəs üçün hər iki tərəfin buna sadiq olması lazımdı. Biz buna sadiqik".***

Həqiqətən də biz torpaqlarımıza qayıdırıq, doğulduğumuz yurdlara, ocaqlara dönürük. Ata-babalarımızın məzarlarını örtməyə qayıdırıq... uşaqlıq xatirələrimizin sapı qırılmış dənələrini yenidən sapa düzməyə gedirik... Biz əkdiyimiz ağacların kölgəsində oturub 30 ilin acısını bir sevinclə ürəyimizdən silib atmağa tələsirik...

Bəli, bütün bunları indi xəyal kimi, yuxu kimi, fərziyə kimi, güman kimi təsəvvür etmirəm, gerçəklik kimi görürəm.

Ən azından ona görə ki, doğulduğum bölgənin, yəni keçmiş Hadrud rayonunun mərkəzində mənim əsgərimin addım səsləri eşidilir.

Hadrutun başının üstündəki təleqüllənin olduğu yüksəklikdə mənim Üçrəngli BAYRAĞIM dalğalanır.

Mən onu ekrandan izləyəndə göz yaşlarımı saxlaya bilmədim. O yerdən ancaq məlumatı olan, amma əyani görmək xoşbəxtliyini hələ ki, yaşamamış övladlarım bir az təəccüb və heyrətlə baxdılar mənə.



Sonra anladılar. Onlara söylədiklərim işimə yaradı.

Və hamısı da bir səslə dedi ki, "biz də ora gedəcəyik".

Hə, bax, bu xoş anları, ürəyimi dağa döndərən anları mənə bağışlayan o Bayraq, o Komandan, o Əsgər oldu.

Deməli, 30 il nə çəkdimsə, nə yaşadımsa, həmin o bağışlananın odunda, atəşində bitdi! Mən sanki yenidən doğuldum.

Tuğlu günlərimə, uşaqlıq illərimə, qoyub gəldiyim həyata döndüm.

İndi bu yazını o günlərin havasıyla, o günlərin artıq məni bürüyən ovqatıyla diqtə edirəm. Bu, qaranlıqdan işığa çıxmaqdı. Və mən bu işığa görə, Komandanıma, Bayrağıma, Əsgərimə minnətdaram. Təbii ki, müharibə hələ bitməyib. Düşmən ağ bayraq qaldırmayıb. Çünki arxalandığı, qoltuğuna girdiyi, Ali Baş Komandanımızın dediyi kimi, dabanını yaladığı yerlər, ölkələr, ölkə başçıları var. Amma bu heç nəyə yarayan deyil.

Ona görə ki, Azərbaycan Prezidenti xalqa müraciətində birmənalı şəkildə dedi ki, ***"Bizi heç kim yolumuzdan, əqidəmizdən döndərə bilməz. Dünyada elə bir güc sahibi yoxdur ki, bizə o torpaqlara getməyə, o müqəddəs ocaqlara dönməyə icazə verməsin. Biz ora gedəcəyik, biz oranı götürmüşük, axıra qədər də götürəcəyik. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!".***

Bəli, indi səfərə hazırlaşan bir insan ovqatındayam. Özü də sevinə-sevinə, ürəklə getmək istəyən bir insan kimi. Gələndə qovulmuşdum, göz yaşlarıyla ayrılmışdım... Yanan evimə baxıb, dağılan, yarmalanan yurduma baxıb fəryad qoparmışdım... İndi isə yenə sevinc göz yaşlarıyla dönürəm. Çünki Qələbəylə gəlirəm.

Gəlirəm ki, o dağılan, o yandırılan evimi, yurdumu yenidən abad edim.

Bunun üçün ürəyimdə, canımda güc də var, təpər də.

Üstəlik, Ali Baş Komandanımızın dedi kimi, ***"Biz o yerləri yenidən abadlaşdıracağıq, yenidən kəndləri, şəhərləri daha gözəl, daha müasir üslubda tikib adamlarımızı, o yerlərin sakinlərini həmin ünvanlarda yerləşdirəcəyik".***

Bax, elə prezidentimiz cənab İlham Əliyevin söylədiyi bu fikrin özü də bizim Böyük qaydışımızın, yurda dönüşümüzün hər kəs üçün edilmiş çağırışıdı.

Deməli, hazırlaşmaq, yır-yığış etmək, qaçqınlıq adlı yükün altından çıxmağın zamanı gəlib çatıb. Necə deyərlər, Qarabağa doğru dönüş üçün atlanmaq vaxtıdı. Qələbəmiz, Dönüşümüz mübarək olsun!

*Əbülfət MƏDƏTOĞLU,*
*Əməkdar jurnalist*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Aybəniz, Nazim və Xoşbulaq

## (Tanınmış şair Aybəniz Kürəkçaylı haqqında bir neçə kəlmə)

**Aybəniz xanım başdan - ayağa xatirədir. Tələbəliyimin xatirəsi. Aybəniz xanım Gəncədir mənim üçün, oxuduğum universitetdir, Xoşbulaqdır. Ən nəhayət Nazimdir, Günel, Rüxsarə, Razım və Salehdir…**

Tanış olanda o birinci, mən isə 3--cü kursda oxuyurdum. Sonra o, ailə qurdu Nazimlə.

Nazim də xatirədir mənim üçün. Aybəniz daha universitetə gəlmədi. Bəlkə də gəldi, ya da qiyabi keçdi. Dəqiq yadımda deyil. Hər halda daha gözümüzdə Nazim vardı. Tələbə yoldaşımız Nazim idi…

### *Biz kənd uşaqları*

***tələbə qızların nişanlısından qorxardıq. Ilk əvvəllər Nazimdən də. Çünki Nazim, iri gövdəli, pəhləvan kimi cavan bir oğlanıydı. Bizdən 2-3 yaş böyük olardı. Sonra gördük ki, o, nə qədər kövrək adammış. Elə Aybənizi də bu cür adam sevə bilərmiş…***

Təzə ailə quranda Universitetin yanında kirayə bir ev tutmuşdi Nazimgil. İlk övladları dünyaya gəlmişdi. Mən də şeytanın qıçını qırıb bir tələbə yoldaşımla uşağa dəyməyə getmişdik. Uşağın adı Razim idi, qucağıma aldım, guya mən də uşaq sevənəm. İndi mənim üçün 36 yaşlı Razim də xatirədi.

Bu yaxınlarda Gəncədəydim, Nazimə dedim ki, o kirayə qaldığınız evi mənə göstər. Getdik, tapıb göstərdi. Indi həmin küçə, həmin ev də xatirədir.

Aybəniz inciməsin, mən deyərdim ki, Nazim Aybənizdən daha böyük şairdir. Çünki o evi elə axtarırdı ki, əslində Aybənizi axtarırdı bəlkə.

Aybəniz haqqımda yazdığı bir şeirdə deyir: "Uşaqlığı yaşayır Qəşəmin barmaqlarında". Onların evi mənə elə doğmadır ki, istəsəm, çayı calayaram süfrəyə, barmaqlarımın onunu da batıraram yağa, utanmaram, çəkinmərəm…

***Aybəniz təpədən - dırnağa şairdir. Təbiətə, insanlara böyük sevgisi var. insan əzabına dözə bilməyən, quş qanadına sevinən şairdir.Şeirlərini əzbər deyəndə yaddan çıxan misraları Nazim yadına salır həmişə.***

Duyğuları safdır, təmizdir Aybənizin. Başdan - ayağa türkdür, bunu belə demək bir az yaxşı çıxmır, yəni türk olan niyə deməlidir ki, mən türkəm, yəni demək istəyirəm, ki, Aybəniz

Türk olmağının vurğunudur, Türk comərdliyinin vurğunudur.

Təbrizi anası kimi sevir, anası kimi yox e, balası kimi sevir. Lap Nazim kimi sevirir Təbrizi. Lap Nazim kimi sevir Türkiyəni.

*Gözün aydın, ay Vətən, anam Təbrizə gəldim,*
*Əlçatmaz arzularla indi üz-üzə gəldim.*




*Neçə illər yol getdim qaranlıq gecələrdə,*
*İşıqlı bir səhərlə aydın gündüzə gəldim.*

Aybənizi kövrəltməyə nə var?. Durub deynən orda bir quş dən dənləyirdi. Bir qırğı da gəlib onun dənini apardı. Indi Aybənizi kiritməkmi olar? Deynən ki, Qoşqarın ətəyinə dolu yağıb, quşlar da elə bilib dolu dəndi, dimdikləyiblər, dimdikləri üşüyüb. Di gəl Aybənizi kirit.

Dur Əlsəgərdən bir şeir de, arxasını Aybəniz tamamlasın. Ənvər Rzanın adını çək, Nazim şeirini əzbərdən desin, bir sözlə, Aybəniz Nazimə yaraşır, Nazim də Aybənizə. Hər ikisi də Qoşqara, Qoşqar da Azərbaycana.

Nazimin pıçıltıyla, astadan şeir deməyi var, bir də görürsən başladı, nə başladı:

*Ay quzu otaran balaca Ənvər,*
*Xoş gördük, xoş gördük, xoş gördük səni.*

Indi Aybəniz neyləsin özündən şeir desin, deməsin? Əlbəttə desin.

*Bu dünyanın işindən baş açmadım heç zaman,*
*Bəzən özüm çaşmışam, bəzən də çaşdırıblar.*
*Dağda ceyran olmuşam, meşələrdə bir aslan,*
*Bəzən özüm azmışam, bəzən də azdırıblar.*

*Tufanlarda bərkiyib, qayalarda daş oldum,*
*Dodaqlarda təbəssüm, yanaqlarda yaş oldum.*
*Gahdan damlaya dönüb yağışa yoldaş oldum,*
*Bəzən özüm yağmışam, bəzən də yağdırıblar.*

Görəsən şair niyə deyir ki, bəzən özüm azmışam, bəzən də azdırıblar? İki qütb həmişə insanı izləyir. Biri insanın iç dünyası biri də cəmiyyətin sənin həyatına müdaxiləsi. Əgər cəmiyyət bizim iç dünyamıza əl uzatmasaydı, şair heç vaxt azmışam deməzdi.

### *Böyük Səməd Vurğun deyirdi ki,*

o saf qəlbi pozan yalnız həyatdır. İnsanın yaşamağında nə səhv ola bilər ki ? Kim deyə bilər ki, dağ çayının yeri səhv düşüb və yaxud bu qaya burda yox, o tərəfdə olmalıydı. Demək insan həyatına əl uzadan cəmiyyət insanı yolundan sapdırır. Bu mənada Aybəniz xanımın yuxarıdakı şeiri müasir ədəbi prosesimizdə maraq doğuran orjinal sosial informasiyadır.

**Nazimgillə Xoşbulaq yaylağında evlərimiz qoşadı, yəni qonşuyuq. Indi Aybəniz xanımın şeirlərinə baxıram, Qoşqar dağının qaş- qabağından tutmuş, qonşumuz Azər Laçınlının sazına, yenə qonşumuz Dövranın nəvəsinə qədər hamsına şeir yazıb. Hamısı da yerli - yerində. Çiçək də öz kökündə, çins şalvarlı çoban da mobil telefonu qulağında, özü də müasir dəbdəbəsylə bir sürü qoyunun qulağında.**

***Daha payız gəlir elə-obaya,***
***Yaylaqdan enirik biz yavaş-yavaş.***
***Hər gün neçə dəyə sökülüb gedir,***
***Səhraya oxşayır düz yavaş-yavaş.***

Bu şeir də bizim dağlardan köç etdiyimiz vaxtlarda yazılıb. Demək dağı dağ eləyən insandır. Insan dağa sevinir, dağ da insana. Orda Xoşbulaqda obaların arana enməyinə yaxın sarı güllər bitir. El arasında bu güllərə "Oba köçdü" gülü deyirlər. Əgər o gül yerdən başını çıxartısa, demək, obaların dağlardan enən vaxtıdır. Bu gül Kəlbəcərdə də bitirdi, Göyçədə də, Laçında da.

Aybəniz xanım təbiətin dilini gözəl bilir. Təbiətə sevinir, təbiətə qarışır.

Onun şeirlərində yağışın, çayın, dolunun səsi var, dili var. Bu dili bilən insan müharibə ağrı -acılarına dözə bilmir. Müharibədən yazır, şeiri ilə Qarabağı geri almaq istəyir. O, şeirin möcüzəsinə hələ də inanır.

**Bu günlərdə gözəl şairimiz Aybəniz Kürəkçaylı Prezident İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" adına layiq görülüb. Mənə elə gəlir ki, bu fəxri adın içində Aybəniz xanımın ustad müəllimliyi ilə yanaşı, şeirlərinin də rolu var. Mən şair bacımı həm fəxri ad almasına, həm də "Bənövşə qoxulu yuxular" şeirlər kitabının çapdan çıxması münasibəti ilə, təbrik edirəm, istəkli dostm, şairlər şairi, müəllimlər müəllimi Nazimə də göz aydınlığı verirəm.**

**Qəşəm Nəcəfzadə**



*AĞASƏFA*

*Bu torpağın hər daşında açılmamış sirr,*
*Nəsillərdən nəsillərə çatan səs, soraq.*
*Bu torpağın daşları da ürək kimidir,*
*Qoy əlini, daş qəlbində döyüntüyə bax.*

### *BU TORPAĞIN DAŞLARI*

*Bu torpağın hər daşında açılmamış sirr,*
*Nəsillərdən nəsillərə çatan səs, soraq.*
*Bu torpağın daşları da ürək kimidir,*
*Qoy əlini, daş qəlbində döyüntüyə bax.*

*Qarış-qarış, addım-addım, dur, gəz elləri,*
*Aç gözünü, gözlərinə zülmət enibdir.*
*Görəcəksən, neçə yerdə el gözəlləri*
*Yad baxışdan, bəd nəzərdən daşa dönübdür.*

*Bu qız-oğlan keçə bilməz düşmən cənginə,*
*Bu iki daş bir-birini, gör, necə qucub!*
*Bu daş quyu, bu daş zindan, bu daş məngənə*
*Bəlkə elə Xaqaninin ahından uçub...*

*Oxu görüm, daş kitabdır daş sərdabələr,*
*Bu naxışlar, bu yazılar - əllərin odu.*
*Daş kurqanlar, qalaq daşlar, bu daş təpələr*
*Hələ dinmir... Öz içində səsini udub...*

*Səslə görüm, bəlkə səda qopdu bu daşdan,*
*Səslə görüm, bu daşların dili lal deyil.*
*Səslə görüm, bu tava daş dinsin yavaşdan,*
*Qaval daşdır, toxun ona, ötəcək dil-dil.*

*Bax, bu döşdə üzü qara yad daşlar da var,*
*Bu yad daşlar burda qalan düşmən başları.*
*Dərsimizi tez unudan yaddaşlar da var,*
*"Sənin-mənim" əhvalatı burdan başlanır.*

*Bu torpağın daşlarında ilahi od var,*
*Bu torpağın daşlarına yad daş qarışmaz.*
*Düşmən ilə barışmazdır bu daş, bu divar,*
*Mən barışsam, sən barışsan...*
*Daşlar, barışmaz!*

*Daşlardakı yaraları ovub-eşmədim,*
*Əzizlədim ocaqdakı bişən daşları.*
*Ömrüm boyu baş sındırdım, başa düşmədim*
*Yük əyəndə qürbət elə düşən daşları.*

*Bu torpağın daşlarında Babək yarası,*
*Bu torpağın daşlarında ürək qanı var.*
*Daş körpülər Araz üstə ürək yarası*
*Daşların da daş harayı, daş tufanı var.*

*Nə qədərdir - bu daşları hesabla, sana,*
*Babaların sapandında hər biri - batman.*
*Bu daşların xırdasını götür ovcuna,*
*Köksünə sıx, vızıldadıb uzağa atma.*

### *BU TORPAĞI QORUMASAM*

*Tez-tez demə: yanğılıyam, teşnəyəm,*
*Yad deyiləm, səni başa düşməyəm.*
*Savalanda şaqqıldayan çeşməyəm,*
*Dizini bük, ovuc-ovuc iç məni.*

*Bulud ötə, gərək torpaq Gün görə,*
*Acıq verib namərdlərə, son kərə*
*Səttərxanla girməliydim səngərə*
*Hayıf, anam doğdu bir az gec məni.*

*Azadlıqdır hər öyüdüm, tərbiyəm,*
*Azadlığın nişanıyam, gerbiyəm.*
*Araz üstə mamırlanmış körpüyəm,*
*Qeyrətin var, gəl, addımla, keç məni.*

*Yalan bitməz, Haqq gərəkdir bu ərzə,*
*Haqq sözümdür, bax, bu imzam, bu ərzəm,*
*Yolun üstə tikan kimi göyərsəm,*
*Oraq götür, dəryaz götür, biç məni.*

*Bu dünyadan ayrılmaram bu qəmlə...*
*Başlananda son çarpışma, son həmlə,*
*Bu torpağı qorumasam sinəmlə,*
*Bu torpağa gömməsinlər heç məni.*

### *HAYQIRIŞ*

*Vətən- bizim köksümüz,*
*Vətən-qaynar sinəmiz.*
*İgid əsgər, can oğul,*
*Güvənirik sənə biz.*

*Vətən-sənin anandır,*
*Vətən-mənim anamdır.*
*Sənin zəfər yürüşün*
*Haqq yoluna inamdır.*

*Parçalanmış Vətəni*
*Bütöv görmək şərəfdir.*
*Vətən sənin əlinlə*
*Bir çözülən kələfdir.*

*Yaralanmış yurdlara*
*Məlhəm sənin izindir.*
*Yürü ha, ana qurban,*
*Qarabağ Azəristan,*
*Azəristan bizimdir.*

*Haydı! Həsrətliləri*
*Yurd-yuvaya qovuşdur.*
*Sənə dastan borcluyam,*
*Bu hələ şeir deyil,*
*İçimdən hayqırışdır!*

*Xızı, Qarabulaq kəndi*

# Qardaş ölkənin məşhurlarından Azərbaycana dəstək davam edir: "Eyni canda iki ruhuq biz..."









**Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması və uğurla davam etdirilməsi nəinki Azərbaycan xalqına, eləcə də qardaş Türkiyə xalqın qürur hissi yaşatmaqdadır! Müharibənin ilk günündənTürkiyə dövlətinin bütün rəsmi şəxsləri, siyasi və ictimai xadimləri dəstək nümayiş etdirərək, hər zaman yanımızda olduqlarını nümayiş etdirirdilər. Son günlər Türkiyə şou-biznes nümayəndələri, aktyorlar, aktrisalar, müğənnilər və digərləri də Azərbaycana şəxsi münasibətlərini öz sosial şəbəkə hesabında ortaya qoydular.**

Adalet.az həmin tanınmış simaları sizə təqdim edir:

**1.** Türkiyənin məşhur müğənnisi Yıldız Tilbe Azərbaycana dəstəyini nümayiş etdirib. Xanım müğənni İnstaqramda Azərbaycan bayrağının rənglərindən ibarət qartal şəklini paylaşıb.

**2.** Türkiyənin məşhur aktrisası Nebahat Çehre Azərbaycana dəstəyini davam etdirir. Nebahat xanımın Azərbaycana müraciəti "Nargis Magazine" jurnalının İnstaqram hesabında paylaşılıb: "Eyni canda iki ruhuq biz, heç vaxt ayrılmayan və parçalanmayan! Biz qan qardaşıyıq. Birinin canı yanarsa, digəri hiss edər…Həmişə yanınızdayıq", - vurğulayıb.Qeyd edək ki, Nebahat Çehre bir neçə gün öncə şəxsi İnstaqram səhifəsində də Azərbaycana dəstəyini nümayiş etdirmişdi.

**3.** Türkiyəli məşhur aktyor Kənan İmirzalıoğlu da Azərbaycana dəstək olub. O, Türkiyənin ATV kanalında yayımlanan "Kim milyonçu olmaq istəyir?" verilişində Qarabağa aid sual ünvanlayıb. O, verilişin iştirakçısına "Ermənistanın işğalı altında olan, Azərbaycana aid tarixi və coğrafi bölgənin adı nədir?" sualı ilə müraciət edib. Aktyor daha sonra Tvitterdə Azərbaycana dəstək paylaşımları ilə diqqət çəkir.

**4.** Türkiyənin məşhur müğənnisi Mahsun Kırmızıgül ermənilərin Gəncədə törətdiyi terrora münasibətini bildirib. Mahsun Kırmızıgül İnstaqramda hekayə bölümündə paylaşım edib."Bu uşaqlara yazıq... Gəncədə mülki əhaliyə edilən hücumları qınayıram. Azərbaycan xalqının yanındayam", - deyə sənətçi qeyd edib.

**5.** Türkiyəli məşhur aktyor Cem Yılmaz da Azərbaycana dəstək olub. Cem Yılmaz şəxsi İnstaqram səhifəsində bu sözləri yazıb: "Can qardaşımız, Azərbaycan xalqına ən yaxın zamanda savaşdan, qandan, kədərdən uzaq günlər arzu edirəm. Ədalətsiz dünyaya heyrətlə baxır, yaxın zamanda bu pisliyin bitməsini istəyirəm".

**6.** "Diriliş Ertuğrul" serialının məşhur aktyoru Engin Altan Düzyatanın Tvitterdə Azərbaycan prezidenti və Pakistan baş nazirinin paylaşımına yazdığı cavab diqqət çəkib. Məşhur aktyor münaqişədən əziyyət çəkən hər iki ölkəyə dəstəyini nümayiş etdirib. Engin Altan Düzyatan Tvitterdə Azərbaycanın prezidenti İlham Əliyev və Pakistanın baş naziri İmran Xanın paylaşımına bu sözləri qeyd edib:

"Qarabağ Azərbaycandır! Kəşmir Pakistandır! Türkiyə hər ikinizin yanınızdadır".

**7.** Türkiyədə yaşayan əslən azərbaycanlı aktrisa Nəsrin Cavadzadə də cəbhədə baş verən son olaylarla bağlı Azərbaycana dəstək olub. Həmuerlimiz

İnstaqramda Səməd Vurğunun "Azərbaycan" şeirindən bir misra paylaşaraq "Yurdum, yuvam məskənimsən", - deyə qeyd edib.

Əziz Türkiyə, əziz qardaşlarımız! Azərbaycan xalqı adından hər birinizə dərin təşəkkürümüzü bildiririk!

**Əntiqə Rəşid**

# Əfsanəvi "Yekədiş"

**O, futbol üzrə ikiqat dünya çempionudur. Karyerası ərzində mərkəzi hücumçu mövqeyində olub. Bir çoxlarının fikrinə görə, futbol tarixinin ən yaxşı futbolçularından olub.**

Müasir futbol tarixinin gəlmiş keçmiş ən yaradıcı, ən möhtəşəm ulduzu olub. Onun haqqında belə bir fikir bildirilib: "Top ayağına dəydiyi zaman Allahdan başqa heç kimin onun hara dönəcəyini, nə edəcəyini bilməz". Hər qolu fərqli tərzdə idi.

"Real"a 52 milyon avroya başa gələn Braziliya futbolunun əfsanəvi futbolçusu "Fenomen", "Yekə diş" ləqəbləri ilə tanınıb. Heç kimin inanmadığı, "bacara bilməz" dediyi, "99 faiz futbol həyatı bitdi" dediyi zamanlardan sonra dəfələrlə təkrarən sağalıb, yaşıl meydanlara qayıdıb. Klub karyerasında 1993-2011-ci illərdə cəmi 384 oyun keçirib, 280 qol vurub.

***Ronaldo 1994-2011-ci İllərdə isə Braziliyanın A millisində forma geyinib. 98 oyunda 62 qol vura bilib.***

### *Anası qarşı çıxdı, ancaq ...*

1976-cı il sentyabrın 18-də Braziliyanın Rio-de-Janeyro şəhərində anadan olub. O, şəhərin kasıb ailələr yaşayan bölgəsində - Bento Ribeiroda doğulub. Braziliyadakı hamı kimi, o da futbola küçələrdən başlayıb. Ancaq uğurlu bir karyeranın başlanğıcında Ronaldoya ən böyük maneə anası Dona Sonia olub. Çünki Ronaldonun bir vaxtlar futbolçu olmuş atasının - Nelionun yolunu davam etdirməsini istəməyib.

Ronaldonun on bir yaşı olanda atası anasını atıb. Bundan sonra o, küçələrdə top qova-qova böyüməyə başlayıb. Bir tərəfdən də ailəsinə yardım etməyə çalışırdı. Belə ki, yaşı az olsa da, müəyyən işlərdə çalışıb. O hər an maşın altına düşə, bandaya qoşula, yaxud küçə uşaqlarını üsulluca güllə ilə vuran "ölüm eskadronu"nun qurbanına çevrilə, bundan əlavə, narkotiklərə qurşana da bilərdi. Çünki onun anadan olduğu Bentu Ribeyru rayonunda balaca oğlanların başına çox belə işlər gəlib. Bəziləri təcavüzə uğrayıb, bəziləri narkotikə qurban gedib. Ancaq Ronaldo o yollardan uzaq olub, yalnız məşhur futbolçu olmağı arzulayıb.

***Anası onun uşaqlar arasında keçirilən futbol yarışlarına qatılmasını belə istəmirdi.***

Hələ 10 yaşı olarkən "Tenniz Klub Valkeyre" futzal klubunda(1986-1989cu illərdə) çıxış etməyə başladı. Lakin o, özünü daha böyük meydanlarda görməyi arzu edirdi. Nəhayət, onun əsas bacarığı 14 yaşında kəşf edildi. 14 yaşına yeni adlamış Ronaldo rayonun kasıb klubu olan "Sosial Ramoz"da (1989-1990) çıxış etməyə başladı. Burada gənclər liqasının bombardiri oldu. 1990-1993-cü illərdə "San-Kristovan"də forma geyindi. 14 yaşlı yeniyetmələrlə müqavilə bağlayan futbol agentləri Martins və Pitta onu "Kruzeyro" (1993-1994) adlı divizion klubuna apardı. Burada ulduzu parlamaya başlayan Ronaldo cəmi 7 il ərzində Hollandiyanın "PSV"(1994-1996), İspaniyanın "Barselona" (1996-1997), Milanın "İnter" (1997-2002) kimi klublarına yol tapdı. Onunla 30 minlik, 4 milyonluq, 20 milyonluq, 50 milyonluq müqavilələr imzalandı.

### *Qəşəng oğlan, seks-simvol*

***1998-ci ildə dünya çempionatında iştirak etməyə gələndə bir vaxtlar Braziliyanın 2-ci dərəcəli futbol klublarında qollar vuran Ronaldodan əsər-əlamət qalmamışdı. İmic mütəxəssisləri onu qəşəng oğlana, reklamçılar və kütləvi mediaçılar isə seks-simvola çevirmişdilər.***

Haqqında yazılanlara görə, əvvəllər Ronaldo, demək olar, eybəcər idi: irəli çıxmış əyri dişləri, darağa yatmayan biz-biz saçları vardı - qızlar ondan yan qaçırdı, hətta Ronaldo özünə sevgili belə tapa bilmirdi.

### *Ümidsiz dilənçi "yekədiş", xeyriyyəçi*

Daha sonra o, "Milan"da (2007-2008), "Korintians Paulista" (2008-2011) klublarında forma geyindi.

***Ronaldo yüz minlərlə dollar pulu xeyriyyəçiliyə sərf edir, amma Braziliya komandalarında birgə oynadıqları həmkarları onu hələ də "yekədiş" ümidsiz dilənçi kimi xatırlayırlar. O, komanda yoldaşlarından qamburger istəyir, məşqçisindən ona təzə ked almasını xahiş edir, jurnalistlərlə pivə içirdi. Ronaldo, demək olar, hər qəpiyinə qənaət edərdi, yalnız bunun hesabına özünə birotaqlı mənzil ala bildi. Nəhayət, bir dəfə o, restorana gedib ofisianta gileyləndi ki, gəncdir, istedadlı futbolçudur, amma evində nə boşqabı, nə də çəngəl-bıçağı var.***

Axırda müəssisənin meneceri istədiklərini ona hədiyyə etdi.

### *"Yerini batıran" "İnter"çi - Oyuncaqla yatırdı*

On səkkiz yaşına qədər Ronaldo özünün böyük, məxmər oyuncaq ayısı ilə yatırdı. Hətta sadəlövhlüyündən jurnalistlərə hərdən yuxuda yerini batırdığını da demişdi.

Özü də bu o vaxta təsadüf edirdi ki, Ronaldo artıq "İnter"də oynayırdı. Bundan sonra İtaliyada dərhal ona "enurez" (yerinibulayan) adı qoydular.

### *Böyüyə bilməyən Ronaldo*

***O, xeyirxah və sadə oğlan idi; bununla yanaşı, ona heç də ağılsız demək olmazdı. Ronaldonun problemi onda idi ki, bir təkanla birdənbirə futbol Olimpinə yüksəlmişdi.***



***Yəni onun böyüməyə, yetişməyə vaxtı olmamışdı - həmyaşıdları özlərini hələ xaraktercə möhkəmləndirəndə, təkmilləşdirəndə Ronaldo artıq bir-birinin ardınca matçlarda qələbələr qazanır, yerdə qalan vaxtını əyləncələrə sərf edirdi.***

### *Maraqlı fakt*

Ronaldo qonşusu Kelli Kristina Peres üçün meyvə oğurlayırdı. Hətta ona yeni "Ford-Eskort" da vəd etmişdi - amma məşhurlaşandan sonra. Bir dəfə həmin qız jurnalistlərə demişdi:

"İndi o, əvvəlki kimi qorxunc deyil. Ronaldonun öz stili var, görkəmcə atletlərə bənzəyir. Oh, kaş ki mən onu tanıyanda belə olaydı! Axı əvvəllər adam onun üzünə baxmaq belə istəmirdi…".

### *Qəzetdəki bir məqalə ona dərs oldu - "Yana bilər"*

Ronaldo işlərini özü qurmayıb. Onun işlərini, reklam müqavilələrini və vaxtını hər müqavilədən özünə on faiz götürən agentlər planlaşdırırdılar.

Əlbəttə, belə rejim gənc futbolçu üçün tamamilə əlverişli idi. Amma dünya çempionatı kimi imtahandan keçməyin nə demək olduğunu o hələ bilmirdi.Onunla bağlı belə yazırdılar:

***"Ronaldo böyük Peleni - Braziliyaya üç dəfə dünya çempionluğu gətirən nəhəng futbolçunu yamsılaya bilər. İstedad hər şey demək deyil, əsl çempionun dəmir iradəsi və özünü saxlaya bilmək bacarığı olmalıdır".***

Bir dəfə belə məqalələrdən biri Ronaldonun əlinə keçib. Yazının müəllifi göstərirdi ki, bu futbolçunu çox yükləmək olmaz:

"Əks halda, o, "yana" və indi narkotik maddələrə qurşanmış ağıldankəm Maradona kimi karyerasına son qoya bilər".

Məlumatlara görə, Ronaldo bu qeydi oxuyub və sonra kövrəlib, ağlayıb. İddiaya görə, o qəzeti bu günə qədər saxlayıb. "Yana bilər" - bu söz ona çox təsir etmişdi.

### *Ən böyük zədə*

Dünya çempionatında braziliyalılar Şotlandiya və Mərakeş yığmalarını məğlub edir. Yeri gəlmişkən, bildirək ki, Mərakeşlə oyunda Ronaldo həyatının ən ciddi zədəsini alır və Norveç yığmasına məğlub olur. Çiliyə qarşı matçda "yekədiş" rəqib komandanın qapısından iki top keçirməyə müvəffəq olur.

**Olimpiya oyunları**
**Bürünc Atlanta - 1996**
**Dünya çempionatları**
**Qızıl - ABŞ, 1994**
**Gümüş - Fransa, 1998**
**Qızıl - Yaponiya/Koreya 2002**
**Konfederasiyalar kubokları**
**Qızıl - Səudiyyə Ərəbistanı, 1997**
**Amerika kubokları**
**Gümüş - Uruqvay, 1995**
**Qızıl - Boliviya, 1997**
**Qızıl - Paraqvay, 1999**
**Uğursuz ailə həyatı**

Ronaldonun ailə həyatı çox uğursuz olub. Belə ki, futbolçu 3 dəfə ailə həyatı qurub. Ancaq heç biri uğurlu alınmayıb. Qurduğu ailələrin hər birinin dağılmasına səbəb futbolçunun qadın düşkünlüyü olub.

İndi Ronaldo dördüncü dəfə evlənməyə hazırlaşır. Onun yeni sevgilisinin adı Paula Moraesdir. Məlumatlara görə, kəbin mərasimi 2015-ci il aprelində Rio-de-Janeyrodan 170 kilometr aralıda yerləşən Buziosedə olacaq. Keçmiş hücumcu toya minə yaxın qonaq dəvət edib. Onların arasında keçmiş komanda yoldaşları çoxluq təşkil edir.

### *Fərdi uğurları*

**Libertadores Kubokunda Qol Kralı: 1993-94**

**Liqa Mineiroda Qol Kralı: 1993-94**

**Liqa Mineiroda İlin Komandası: 1994**

**Hollandiya Liqası Qol Kralı: 1994-95**

**La Liqada Qol Kralı: 1996-97, 2003-2004**

**Avropa "Qızıl Butsi": 1996-97**

**La Liqada ilin ən yaxşı legioner futbolçusu: 1996-97**

**Amerika Kubokunda - ən qiymətli oyunçu: 1997**

**Konfederasiya Kuboku - ən yaxşı ilk 11i : 1997**

**Ən yaxşı oyunçu: 1997**

**Qol kralı: 1996-1997**

**IFFHS - dünyada ilin ən çox qol vuran oyunçusu: 1997**

**UEFA - ilin ən qiymətli oyunçusu: 1997-98**

**Seriya A - ilin futbolçusu: 1997-98**

**Seriya A - ilin ən yaxşı legioner futbolçusu: 1997-98**

**UEFA ən yaxşı hücumçu: 1997-98**

**Bravo Mükafatı: 1995, 1997, 1998**

**FIFA Dünya Kuboku Qızıl Ayaqqabı: 1998**

**UEFA Kuboku Ən Yaxşı Oyunçu: 1998**

**Amerika kuboku Qol Kralı: 1999**

**Qızıl top -1996 ,1997 və 2002**

**Amerika kuboku - ən yaxşı ilk 11i: 1997, 1999**

**FIFA - dünyada ilin futbolçusu: 1996,1997,2002**

**Avropada ilin futbolçusu: 1997,2002**

**World Soccer jurnalı - dünyada ilin futbolçusu: 1996,1997,2002**

**Onze d'Or mükafatı: 1997,2002**

**FIFA - Dünya Kuboku - ən yaxşı ilk 11i: 1998, 2002**

**FIFA Dünya Kuboku - ən yaxşı oyunçu: 2002**

**FIFA - Dünya Kuboku qol kralı: 2002**

**İnterkontinental Kuboku - ən qiymətli oyunçu: 2002**

**Laureus - ilin ən yaxşı geri dönüş mükafatı: 2002**

**La Liqa - ilin ən yaxşı cənubi amerikalı futbolçusu: 1996-97, 2002-03**

**Qızıl ayaq: 2006**

**Seriya A-da 10 - ilin ən yaxşı futbolçusu: 1997-2007**

**"France Football" jurnalı - ilin ən yaxşı ilk 11i: 2007**

**"Goal.com" "10 ilin ən yaxşı futbolçusu" mükafatı: 2000-2010**

***"Rejissor işi elədir ki, o, artıq yazılmış səhnələri canlandırır. Bəli, filmin təqdimatı rejissordan asılıdır, amma hər şeyin önündə yazıçı təfəkkürü dayanır. Çox şadam ki, bu filmi Aqil müəllimin romanı əsasında çəkmişəm. Çünki Aqil Abbas bu proseslərin, hadisələrin iştirakçısı olub, orada hansısa bir yalan yoxdur". "Ədalət" qəzetinin qonağı Əməkdar incəsənət xadimi Elxan Cəfərovdur.***

**-Müharibə, insan və ümid haqqında filmdir "Dolu"...**

-Deyim ki, film haqqında onu ərsəyə gətirən insanların danışması bir qədər çətin olur. Adətən film tamaşaçı rəyi ilə müəyyən edilir ki, yaxşıdır, ya yox. "Dolu" 2012-ci ildə çəkilmiş və ekranlaşdırılmış bir filmdir. "Dolu" mənə çox doğma filmdir. Hələ illər öncə bu filmi çəkərkən hazırkı günləri xəyal edirdik, arzu edirdik, bu günlərin sevincini xəyalımızda qururduq. Amma indi həmin sevinci yaşayırıq. Filmin sonuncu səhnəsi Qarabağda şəhid olmuş insanların ruhlarının Qarabağa geri dönüşü ilə bitir. O dövrdə də, bu günün özündə də həmin səhnə çox emosional hisslər yaradır. Mən "Dolu" romanına görə görkəmli yazıçımız, millət vəkilimiz Aqil Abbasa təşəkkür edirəm. Bilirsiniz, rejissor işi elədir ki, o, artıq yazılmış səhnələri canlandırır. Bəli, filmin təqdimatı rejissordan asılıdır, amma hər şeyin önündə yazıçı təfəkkürü dayanır. Çox şadam ki, bu filmi Aqil müəllimin romanı əsasında çəkmişəm. Çünki Aqil Abbas bu proseslərin, hadisələrin iştirakçısı olub, orada hansısa bir yalan yoxdur. Hər yerdə deyilir ki, film rejissorun əməyinin nəticəsidir, amma mən deyərdim ki, yazıçı olmadan rejissor heç bir şey edə bilməz.

# ""Dolu" mənə çox doğma filmdir"

### *"Həqiqətləri çatdırmaq istədim"*

**-Düzgün aktyor seçimi də bu filmin uğurlarını təşkil edir…**

-Bəli. Aktyorların uğurlu olması rejissorun kompetensiyasıdır. Aktyorların seçimində onların peşəkarlığından daha çox qəlblərinə üstünlük verdim. Drakon obrazını canlandıran Rza Rzayevi birinci gün görən kimi bildim ki, onun təbiəti elə Drakon təbiətlidir. Elvin Əhmədovla tanış olanda gördüm ki, baş rolda yaxşı oynaya bilər. Daha sonra Məmməd Səfa haqqında danışım.



Onu YUĞ teatrından tanıyıram. Məmməd Səfanın özünün şəxsiyyəti elə komandir şəxsiyyətidir.

Filmdə çəkilən bütün aktyorlarda peşəkarlıq yox, təbiilik axtardım. Şəxsiyyətlərin özlərinin daxili aləmlərinə nəzər salaraq həqiqətləri çatdırmaq istədim. Elə buna görə də film uğurlu alındı. Filmdə oynayan bütün aktyorlara, bütün yaradıcı heyətə minnətdaram.

**-Qarabağ musiqi beşiyidir. Məhz bu yöndən də Polad Bülbüloğlunun filmə musiqi yazması və bu musiqinin bizim dərdlərimizi ifadə etməsi birmənalı şəkildə "Dolu"da çatdırılırdı...**

-Polad Bülbüloğlu bizim gözəl sənətkarımız, karifey sənətkarımız, həm də ki, dəyərli səfirimizdir. "Dolu"da ilk dəfə idi, Polad müəllimlə görüşürdük. Sonra bir filmdə də birlikdə çalışdıq ki, o da "Yarımçıq xatirələr" oldu. Bilirsiniz, mən istər Polad müəllimdən, istərsə də, Aqil müəllimdən yaşda kiçiyəm, ona görə də bir az narahatlığım var idi. Polad müəllim yüksək səviyyəli insandır. Söhbət təkcə musiqidən getmir. Sözsüz ki, musiqini yazan insan onu hiss edib bəstələyir. Amma musiqini ortalığa çıxartmaq, bir də film üçün ərsəyə gətirmək peşəkarlıq tələb edir. Polad müəllimdə hansısa bir təzyiq, nəyəsə etiraz etmək yox idi. Məsələn, o filmdə bir hissə üçün musiqi yazmışdı, mən onu filmin həmin hissəsində deyil, başqa yerində verdim, Polad müəllim bunu çox normal qarşıladı. Polad müəllim gözəl insandır. Allah ona ömür versin.

### *"Film peşəkar kariyeramda tramplin rolunu oynadı"*

**-"Qarabağdır Azərbaycan", "Yarımçıq xatirələr" filmlərinin rejissorusunuz. Bir az da onlardan söhbət açaq…**

-İstər "Dolu"nun, istər, "Qarabağdır Azərbaycan"ın, istərsə də "Yarımçıq xatirələr"in kökündə eyni məsələ, eyni arzu dayanır: "QARABAĞ!" "Qarabağdır Azərbaycan" 2009-cu ilin istehsalıdır. Film "Sine Allians" şirkətinin məhsuludur. Onun rəhbəri Əliağa Məmmədovdur ki, ona da öz təşəkkürümü bildirirəm. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşəbbüsü ilə bu film çəkilib. "Qarabağdır Azərbaycan" filmi mənim Qarabağ mövzusunda ilk işim idi. Bu film mənim peşəkar kariyeramda tramplin rolunu oynadı. "Dolu" filminin mənə həvalə edilməsi məhz "Qarabağdır Azərbaycan"da göstərdiyim peşəkarlığa görə oldu. "Qarabağdır Azərbaycan"da bizim qəhrəman azərbaycanlımız Fərhad Atakişiyevdən bəhs edilir. Ermənilər tərəfindən xəsarətlər alan bir şəxsin son damla qanına qədər "Qarabağdır Azərbaycan" deməsi bizi çox kövrəltmişdi.

"Dolu" filmini dünya ictimaiyyətinə təqdim edərkən bizi sevənlər onsuz sevindilər, amma bizi istəməyənlər dedi ki, bu film bitərəflidir. Yalnız Azərbaycan filmidir və militarist filmdir. Ona görə "Dolu"nu böyük bazara çıxara bilmədik. Sonradan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə qərara aldıq, elə bir film çəkək ki, militarist olmasın. Ki, azərbaycanlılardan başqa millətlərin də şüuruna təsir etmək mümkün olsun. Odur ki, belə bir süjet xətti yarandı: "Azərbaycanlı zabit Qarabağda döyüşür və rus zabiti tərəfindən qətlə yetirilir". Nə yaxşı ki, mən bu filmləri çəkmişəm. Bu gün sevindirici haldır ki, "Yarımçıq xatirələr" filmindən parçalar "Youtube"də yayımlanır. Bu, mənim üçün böyük fərəh hissidir.

**-Bir az öncə dediniz ki, "Dolu" filmindəki arzularımız real olur, artıq Qarabağımıza qayıdırıq. Qələbə xəbərlərini eşitmək necə bir hissdir?**

-Bu günlərdə o qədər emosional vəziyyətdəyəm ki, o qədər qarışıq duyğular içərisindəyəm ki. Bu gün biz bir xalq olaraq yumruq şəklində Cənab Prezidentin yanındayıq. Bu, bizim milli birliyimizin ən yüksək zirvəsidir. Allah Ali Baş Komandanı, Xalqımızı, Ordumuzu qorusun.

**Rövşən Tahir**

Məmmədova Nərminə Erkin qızının adına Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsi, 164K saylı bağ sahəsinin texniki pasportu itdiyi üçün etibarsız sayılır.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 22**
Çapa imzalanmışdır:
21.10.2020